# POLİQLOT

№ 5(259) may 2025 * Təsisçi: Azərbaycan Dillər Universiteti * www.adu.edu.az


# Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası

## VIII Beynəlxalq konfrans

Mayın 6-da Azərbaycan Dillər Universitetində (ADU) Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası” VIII Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.

Beynəlxalq tələbə himni olan “Gaurdeamus” oxunub. ADU-nun rektoru, akdemik Kamal Abdulla konfrans iştirakçılarını salamlayıb, qonaqları universitetdə görməkdən məmnun olduğunu bildirib. Kamal Abdulla qeyd edib ki, ənənəvi şəkildə hər il ADU-da Ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilir.

☞ səh. 3



## Ankara Universiteti TÖMER ADU-da

Mayın 7-də Azərbaycan Dillər Universiteti (ADU) və Ankara Universiteti TÖMER arasında akademik əməkdaşlıq sahəsində müqavilə imzalanıb, ADU-da TÖMER-in açılışı olub. Açılış mərasimi ADU-nun keçirdiyi “Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası” adlı VIII Beynəlxalq konfransı çərçivəsində baş tutub. Mərasimində hər iki universitetin rəhbər şəxsləri, Türkiyə Respublikasının fövqəladə və səlahiyyətli səfiri Birol Akgün, Türkiyə ictimaiyyətinin tanınmış nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla qonaqları salamlayıb, onları universitetdə görməkdən məmnun olduğunu bildirib. Qeyd olunub ki, Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq münasibətləri yüksək səviyyədə inkişaf etməkdədir. Azərbaycan Dillər Universiteti və Ankara Universiteti TÖMER arasında akademik əməkdaşlıq müqaviləsinin imzalanması bu münasibətlərə yeni töhfə verəcək: “Bu gündən etibarən Azərbaycan Dillər Universitetində Ankara Universiteti TÖMER fəaliyyət göstərəcək. Bu, türk dilini peşəkar və təcrübəli müəllim heyəti tərəfindən mükəmməl şəkildə öyrənmək, rəsmi TÖMER sertifikatı əldə etmək istəyənlər üçün möhtəşəm fürsətdir. Çox istərdik ki, bu müqavilə işləsin və biz bir-birimizi, bütün türk dünyasını daha yaxından tanıyaq”.

Səmimi qarşılanmaya və xoş sözlərə görə təşəkkürünü bildirən Ankara Universitetinin rektoru Necdet Ünüvar iki universitet arasında imzalanacaq müqaviləni Türkiyə və Azərbaycan arasında əlaqələrin inkişafına mühüm töhfə kimi dəyərləndirib: “Bu müqavilənin imzalanma mərasiminin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş beynəlxalq elmi konfransa təsadüf etməsindən son dərəcə qürur duyuram. TÖMER-in bünövrəsinin məhz belə əlamətdar gündə qoyulması bizi çox sevindirir”.

Ulu Öndər Heydər Əliyevlə bağlı xoş xatirələrini bölüşən rektor Azərbaycan Dillər Universitetində keçirilən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş beynəlxalq elmi konfransın çox yüksək dərəcədə təşkil olunduğunu bildirib. Qeyd olunub ki, Ankara Universiteti TÖMER Bakı ofisinin Azərbaycan Dillər Universitetində fəaliyyət göstərməsi xalqlarımız arasında dostluq münasibətlərini daha da möhkəmlədəcək. Bu həm də gələcək elmi əməkdaşlıq, mübadilə proqramlarının həyata keçirilməsi, yeni elmi perspektivlərin açılmasına dəstək olacaq.

Türkiyə Respublikasının fövqəladə və səlahiyyətli səfiri Birol Akgün Azərbaycan Dillər Universiteti və Ankara Universiteti TÖMER arasında akademik əməkdaşlıq sahəsində müqavilənin əhəmiyyətini vurğulayıb.

İki qardaş ölkə arasında olan əlaqələrin inkişafından danışan səfir Ankara Universiteti TÖMER-in Bakı ofisinin fəaliyyətinə uğurlar diləyib, bu layihənin təkcə Azərbaycan-Türkiyə əlaqələrinin deyil, ümumilikdə türk dünyası birliyinin möhkəmlənməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Sonra Ankara Universiteti TÖMER-in Azərbaycan Dillər Universitetində fəaliyyət göstərəcək Bakı ofisinin açılış mərasimi keçirilib. Akademik Kamal Abdulla və Necdet Ünüvar mərkəzin rəmzi açılışını bildirən lenti kəsib, qonaqlar burada yaradılan şəraitlə tanış olublar.

Qeyd edək ki, Ankara Universiteti TÖMER türk dili öyrənmək və rəsmi TÖMER sertifikatı əldə etmək istəyənlər üçün böyük fürsətdir!

1984-cü ildən bəri dil tədrisi sahəsində aparıcı qurum kimi tanınan və beynəlxalq akkreditasiyaya malik olan Ankara Universiteti TÖMER, türk dilinin xarici dil kimi tədrisində elmi və akademik yanaşmalar tətbiq edən nüfuzlu bir təhsil mərkəzidir.



## Siena Əcnəbilər Universitetinin nümayəndə heyəti ADU-nun qonağı olub

Azərbaycan Dillər Universitetində (ADU) İtaliyanın Siena Əcnəbilər Universitetinin nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə universitetin rektoru Tomaso Montanari, rektorun müşaviri professor Pietro Cataldi, CILS dil sertifikasiyası üzrə nümayəndə professor Sabrina Machetti, CILS-in Türkiyə üzrə nümayəndəsi professor Giovanni Amadori və İtaliyanın Azərbaycandakı səfirliyinin birinci katibi Marvin Seniga iştirak ediblər.

ADU-nun rektoru, akademik Kamal Abdulla nümayəndə heyətini salamlayaraq bir neçə gün əvvəl İtaliyanın Peruca Əcnəbilər Universitetinin rektoru ilə keçirilmiş görüş və imzalanmış sənədlər barədə məlumat verib. O, Siena Əcnəbilər Universiteti ilə də uğurlu əməkdaşlığın mümkünlüyünə inandığını bildirib.

Akademik Kamal Abdulla görüşdə özünün məşhur italyan yazıçısı və alim Umberto Eko ilə olan şəxsi tanışlığından bəhs edib. İtalyan nümayəndələr isə İkinci Dünya Müharibəsinin universitetə təsirindən və Siena Əcnəbilər Universitetinin tarixindən danışıblar. Universitetdə müxtəlif dillərin tədris olunmasını yüksək qiymətləndirərək, universiteti Umberto Ekonun ifadəsi ilə “görüş məntəqəsi” adlandırıblar və ali təhsil sahəsində görülən bu işlərin əsas məqsədinin sülhə xidmət etdiyini bildiriblər.

Tərəflər arasında keçirilən müzakirələr zamanı Siena Əcnəbilər Universitetinin digər ölkələrdəki şöbələri, Peruca Əcnəbilər Universiteti ilə əlaqələri, bu universitetlərlə olan oxşar və fərqli cəhətlər barədə fikir mübadiləsi aparılıb. Görüşdə həmçinin ADU nəzdində yaradılmış CELİ dil sertifikasiya mərkəzinin fəaliyyəti və gələcək perspektivləri ətrafında müzakirələr aparılıb.

Akademik Kamal Abdulla universitetdə tədris olunan dillər, ADU-nun beynəlxalq QS reytinqində əldə etdiyi nailiyyətlər və universitetin Azərbaycanı beynəlxalq səviyyədə təmsil etməklə bağlı həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verib.

Görüş zamanı iki universitet arasında gələcək əməkdaşlıq imkanları, birgə elmi və tədris layihələri, tələbə və müəllim mübadiləsi proqramları müzakirə olunub.

Sonda akademik Kamal Abdulla görüşün xatirəsi olaraq Siena Əcnəbilər Universitetinin rektoru Tomaso Montanariyə İtaliyada nəşr olunmuş “Yarımçıq əlyazma” romanını hədiyyə edib.



# ADU: QS reytinqlər cədvəlində ən yaxşı universitetlər sırasında



Azərbaycan Dillər Universiteti "Müasir dillər" proqramı üzrə dünyanın ən yaxşı 250 universitetinin siyahısına daxil olub.

Martın 12-də "Quacquarelli Symonds" reytinq agentliyi fənn sahələri üzrə dünyanın ən yaxşı universitetlərinin 2025-ci il üçün cədvəlini dərc edib. Azərbaycan universitetləri, ümumilikdə, 5 fənn sahəsində təmsil olunub və irəliləyib.

Azərbaycan Dillər Universiteti (ADU) "Müasir dillər" proqramı üzrə dünyanın ən yaxşı 250 universitetinin siyahısına daxil olub. Müraciət edən 5200 universitetdən 1747 universitet tədqiqata cəlb olunub.

Qeyd edək ki, 2023 və 2024-cü illərdə Azərbaycan Dillər Universiteti Müasir Dillər üzrə 301-340-cı yerləri tutduğu halda, bu il 100 pillə irəliləyərək 201-250-ci sıralarda yer alıb.

Sözügedən reytinq 5 indikatoru (akademik nüfuz, işəgötürənlər arasında nüfuz, məqalə üzrə istinad sayı, H-indeks və beynəlxalq elmi əməkdaşlıq indeksi) nəzərə alır.

ADU-nun rektoru, akademik Kamal Abdulla bu tarixi uğur münasibətilə universitet əməkdaşlarını təbrik edib, bu uğurun universitet kollektivinin yüksək bilik və bacarıqlarının nəticəsi kimi qiymətləndirib. Rektor qeyd edib ki, ADU QS reytinqlər cədvəlində 100 pillə irəliləməklə, böyük elmi nailiyyətə imza atıb:

"Bu, tarixi bir hadisədir. ADU dünyanın nüfuzlu universitetləri arasında 201-250-ci yeri bölüşür. Bu böyük nailiyyətdir. ADU-nun nüfuzu bu gün dünya sərhədlərini aşır. Müəllimlərimizin, akademik heyətimizin, tələbələrimizin elmi potensialı günü-gündən artır. Bu da özünü beynəlxalq səviyyədə göstərir. QS reytinqlər cədvəlində irəliləməyimiz bizim hər birimizin əməyinin bəhrəsi, əziyyətinin göstəricisidir".

Qeyd edək ki, QS reytinqi Beynəlxalq Reytinq Ekspert Qrupu (IREG) tərəfindən təsdiqlənir və dünyada ən nüfuzlu reytinqlərindən biri kimi qəbul edilir. 201-250-ci sırada yer almaq Azərbaycan Dillər Universiteti üçün böyük uğurdur. Universitet rəhbərliyinin böyük səyləri nəticəsində beynəlxalq əlaqələrin genişləndirilməsi, uğurlu strateji təhsil planının həyata keçirilməsi, akademik heyətin peşəkarlıq səviyyəsinin yüksəldilməsi QS reytinqlər cədvəlində ADU-nun daha da irəliləməsinə şərait yaradıb.

ADU-nun rektoru, akademik Kamal Abdulla başda olmaqla, bütün universitet kollektivini təbrik edir, yeni uğurlar arzulayırıq!

## Səudiyyə Ərəbistanı Krallığının səfiri ADU-da



Aprelin 11-də Azərbaycan Dillər Universitetində (ADU) Səudiyyə Ərəbistanı Krallığının səfiri İssam bin Saleh əl-Cuteyli ilə görüş keçirilib. ADU-nun rektoru, akademik Kamal Abdulla qonağı universitetdə görməkdən məmnun olduğunu bildirilib. Qeyd olunub ki, iki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətləri yüksək səviyyədədir. Bu münasibətlər özünü iqtisadi, mədəni, humanitar sahələrdə də göstərməkdədir:

Rektor Səudiyyə Ərəbistanında fəaliyyət göstərən universitetlərdən biri ilə əməkdaşlıq əlaqələri yaratmaqda maraqlı olduğunu diqqətə çatdırıb: "Bu, həm gənclərimizin bir-birini daha yaxından tanımağına səbəb olacaq, həm də alimlərimiz müştərək elmi-tədqiqat işlərini həyata keçirəcəklər. İnanıram ki, sizin köməkliyinizlə bu işləri görə biləcəyik".

Səmimi qarşılanmaya və xoş sözlərə görə təşəkkürünü bildirən səfir iki ölkə arasında olan əlaqələrin qardaşlıq səviyyəsində olmasını diqqətə çatdırıb. Qeyd olunub ki, ölkələr arasında elmi əməkdaşlığın inkişafı istiqamətində bir sıra addımlar atılmaqdadır. ADU-ya səfərin bu mənada fərqlənməsi önə çəkilib.

Bildirilib ki, görüş qarşılıqlı əməkdaşlığın başlanğıcı üçün vacib addım hesab olunmalıdır. ADU ilə üç mərhələ üzrə əməkdaşlığın mümkünlüyü haqqında fikir mübadiləsi aparılıb. İlk mərhələdə beynəlxalq əlaqələr üzrə fəaliyyət göstərən şöbə ilə əlaqələrin qurulması, universitet haqqında məlumatların əldə edilməsi vacibdir. Daha sonra ADU ilə əməkdaşlığa başlanması üçün addımların atılmasının - Memorandum imzalanmasının vacibliyi vurğulanıb.

Görüş gələcək elmi əməkdaşlıq, mübadilə proqramlarının həyata keçirilməsi, yeni elmi perspektivlərin mövcudluğu ətrafında müzakirələ davam edib.

# Pakistan Milli Müasir Dillər Universitetinin rektoru ilə görüş



Mayın 6-da Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla Pakistan Milli Müasir Dillər Universitetinin rektoru Şahid Mahmud Kayani ilə görüşüb. Görüş zamanı tərəflər Azərbaycan-Pakistan münasibətləri, iki ölkə arasında dostluq və akademik əməkdaşlıq məsələləri ətrafında səmimi və məhsuldar müzakirələr aparıblar.

Rektor Kamal Abdulla Pakistanlı qonaqları universitetdə görməkdən məmnun olduğunu bildirib, Pakistan xalqının dostluq, sevgi və mehriban münasibətini yüksək qiymətləndirib, iki ölkə liderlərinin münasibətlərinin xalqlar üçün örnək olduğunu vurğulayıb.

Şahid Mahmud Kayani öz növbəsində Azərbaycanda keçirilən Pakistan mədəniyyəti və dili ilə bağlı tədbirlərdə beynəlxalq iştirakın yüksək olmasından məmnunluqlarını ifadə ediblər. Bildirilib ki, bu tədbirlər Azərbaycan və Pakistan xalqları arasında mədəni və elmi əlaqələrin güclənməsinə mühüm töhfə verir.

Görüş çərçivəsində nümayəndə heyəti ADU ilə dilçilik, kompüter elmləri və süni intellekt sahələrində akademik əməkdaşlıq qurmaq niyyətində olduqlarını bəyan edib. Hər iki tərəf gələcəkdə akademik, mədəni və texnoloji sahələrdə əməkdaşlığın genişləndirilməsi istiqamətində səylərin davam etdiriləcəyini bildirib.

## İspaniya Krallığının müvəqqəti işlər vəkili ilə görüş



Aprelin 11-də Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla İspaniya Krallığının müvəqqəti işlər vəkili Xose Pedro Torrubia ilə görüş keçirib.

Görüş zamanı rektor Kamal Abdulla qonağı salamlayaraq onu universitetdə görməkdən məmnun olduğunu bildirib. O, ADU-da 20-dən çox dilin, o cümlədən Avropa və Asiya dillərinin tədris olunduğunu, universitetin QS reytinqlər cədvəlində dünyada ilk 200 universitet sırasında yer aldığını qeyd edib. Rektor ispan həmkarlarla əlaqələrin möhkəmləndirilməsinin, gənclər arasında münasibətlərin dərinləşdirilməsinin və qarşılıqlı səfərlərin əhəmiyyətindən danışıb. Həmçinin tələbə və müəllim mübadiləsinin vacibliyini vurğulayıb.

Xose Pedro Torrubia ADU-da olmaqdan məmnunluğunu ifadə edərək, Elm və Təhsil Nazirliyi ilə qurulan sıx əməkdaşlıqdan bəhs edib. O, iki ölkə universitetləri arasında elmi və mədəni sahələr üzrə əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulayıb və bu istiqamətdə dəstəyə hazır olduqlarını bildirib.

ADU rektoru qonağı universitetdə fəaliyyət göstərən "Səfir saatı" layihəsinə dəvət edib və tələbələrin maraq dairəsində olan mövzu üzrə onlarla görüş keçirə biləcəyini bildirib.

Görüşdə tərəflər, həmçinin ispan universitetlərindən birində Azərbaycan dili və mədəniyyəti mərkəzinin yaradılması təşəbbüsünü də müzakirə ediblər. ADU-nun rektoru bu istiqamətdə birgə layihələrin həyata keçirilməsinə açıq olduqlarını və real nəticələrə nail olmağın mümkünlüyünü bildirib. Hazırda dünyanın 8 ölkəsində belə mərkəzlərin mövcud olduğu qeyd edilib.

Görüşdə səfirlik vasitəsi ilə tələbə-müəllim mübadiləsinin yeni inkişaf perspektivləri də müzakirə olunub, qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Macarıstan səfiri ADU-nun qonağı olub



Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tamaş Torma ADU-nun qonağı olub. Görüşdə Mədəni diplomatiya departamentinin rəhbəri Eszter Pap, mədəniyyət və təhsil diplomatı Monika Felföldi də iştirak ediblər.

ADU-nun rektoru, akademik Kamal Abdulla səfiri və qonaqları salamlayıb, onları universitetdə görməkdən məmnun olduğunu bildirib. Qeyd olunub ki, Azərbaycan və Macarıstan arasında sıx iqtisadi, siyasi, elmi, mədəni əlaqələr mövcuddur. Beynəlxalq əlaqələrin inkişafı özünü elmi, mədəni sahələrdə də yüksələn xətlə göstərməkdədir. Macarıstanda fəaliyyətə başlayacaq Azərbaycan dili və mədəniyyəti mərkəzi haqqında danışan rektor, qarşılıqlı əlaqələrin qurulması istiqamətində əlverişli imkanların mövcudluğundan bəhs edib:

"Arzu edərdik ki, macar həmkarlarımızla əlaqələrimiz daha da genişlənsin. Bu baxımdan kifayət qədər yollar var. Əlaqələrimizin inkişafında göstərdiyiniz diqqət və qayğıya görə təşəkkür edirəm. İnanıram ki, bu sahədə atdığınız addımlar əlaqələrimizin inkişafına növbəti dəfə öz töhfəsini verəcək".

Qonaqlara ADU-nun QS reytinqlər cədvəlində qazandığı uğurlu nəticə haqqında məlumat verilib. ADU beynəlxalq əlaqələrin qurulmasına xüsusi önəm verir. Dünyanın bir sıra nüfuzlu universitetləri ADU ilə əməkdaşlıq etməkdə maraqlıdır.

Səmimi qarşılanmaya və qonaqpərvərliyə görə təşəkkürünü bildirən səfir ADU ilə əlaqələrin perspektivlərindən söz açıb. Bildirilib ki, Macarıstan universitetləri ilə ADU-nun əlaqələrinin möhkəmlənməsi istiqamətində səfirlik tərəfindən daima dəstək göstəriləcək.

Görüşdə Azərbaycan Dillər Universiteti ilə Macarıstan Xarici İşlər və Ticarət Nazirliyi arasında əməkdaşlıq haqqında Memorandum yenilənib. 2022-ci il avqustun 2-də bağlanmış müqavilə yenilənərək 3 illik müddətinə uzadılıb.

Daha sonra səfir ADU-nun Macar Dili və Mədəniyyəti Mərkəzində olub, tələbələrlə görüşüb.

# Konfrans iştirakçıları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

Mayın 6-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI" VIII Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.



Açılış mərasimindən öncə ADU rəhbərliyi və konfrans iştirakçıları Fəxri Xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər.

ADU kollektivi və dünyanın bir sıra xarici ölkələrindən olan nüfuzlu ali təhsil müəssisələrinin rəhbərləri, elm, mədəniyyət, ictimaiyyət nümayəndələri Ulu Öndər Heydər Əliyevin və onun xanımı, görkəmli oftalmoloq alim Zərifə Əliyevanın məzarüstü abidəsi önünə əklil və gül dəstələri qoyublar.

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI" VIII Beynəlxalq elmi konfransa dünyanın 8 ölkəsindən qırxdan artıq nümayəndə iştirak etmişdir.

# Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası

*VIII Beynəlxalq konfrans*

Mayın 6-da Azərbaycan Dillər Universitetində (ADU) Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" VIII Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.



Beynəlxalq tələbə himni olan "Gaurdeamus" oxunub. ADU-nun rektoru, akdemik Kamal Abdulla konfrans iştirakçılarını salamlayıb, qonaqları universitetdə görməkdən məmnun olduğunu bildirib. Kamal Abdulla qeyd edib ki, ənənəvi şəkildə hər il ADU-da Ulu öndər Heydər Əliyevin anadan olmasının ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" VIII Beynəlxalq elmi konfransın əhəmiyyətindən danışan rektor bildirib ki, konfransa maraq böyükdür:

"Beynəlxalq elmi konfransa dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələrindən olan elm, mədəniyyət, ictimaiyyət nümayəndələri qatılıb. Konfransa maraq böyükdür. Konfrans çərçivəsində bir sıra universitetlərlə müqavilələr imzalanacaq. Bu, beynəlxalq əməkdaşlıq çərçivəsində mühüm əhəmiyyət daşıyır. Həmçinin bu görüşlər gələcəkdə yeni elmi əməkdaşlıq üçün əlverişli şəraitin yaranmasına imkan verəcək. ADU-nun son illər beynəlxalq nüfuzunun artması QS reytinqlər cədvəlində də əyani şəkildə özünü göstərir. Belə ki, ADU bu il QS reytinqlər cədvəlində yüz pillə irəliləməyi bacarıb. Bu, böyük uğurdur. Konfrans çərçivəsində bir sıra layihələr həyata keçiriləcək, müəllim-tələbə mübadilə proqramları ilə bağlı müzakirələr aparılacaq. Ulu öndər Heydər Əliyevin işığı bu gün də bizimlədir. Konfransda iştirak edən bütün iştirakçılara öz təşəkkürümüzü bildiririk".

Ankara universitetinin rektoru Necdet Ünüvar konfransın təşkilini yüksək qiymətləndirib. Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşən rektor bildirib ki, konfrans özündə böyük bir mənanı əks etdirir: "Bu mənanın ətrafında sevgi ilə birləşən Azərbaycan Dillər Universiteti və bütün konfrans iştirakçıları son dərəcə mühüm bir missiyanı uğurla həyata keçirirlər. Ankara Universiteti ilə ADU arasında beynəlxalq əməkdaşlıq çərçivəsində bir sıra görüşlər keçirilib. Bu görüşlər əsasən elmi əməkdaşlıq və dostluq münasibətlərini özündə ehtiva edir".

İlk dəfə olaraq ADU-da açılacaq Tömər layihəsi ilə bağlı məlumat verən rektor bu addımın konfrans çərçivəsində atılan ən vacib hadisələrdən biri olduğunu vurğulayıb.

Pakistan Milli Müasir Dillər Universitetinin rektoru, general-mayor Şahid Mahmud Kayani konfransda iştirakı ilə bağlı məmnunluğunu ifadə edib. Qeyd olunub ki, Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan konfrans son dərəcə mühüm əhəmiyyətə malikdir. Qarşılıqlı elmi əməkdaşlığın və tərəfdaşlığın önəmindən danışan rektor konfransın gələcək elmi görüşlərin keçirilməsi üçün yaratdığı imkanlardan söz açıb.

Peruca Əcnəbilər Universitetinin rektoru Valerio de Cesaris qeyd edib ki, konfrans özlüyündə həm elmi, həm də mədəni tərəfləri birləşdirir. Azərbaycan və İtaliya arasında sıx tərəfdaşlıq və dostluq münasibətləri mövcuddur. Bu əlaqələrin inkişafı özünü elmi istiqamətdə də göstərməkdədir.

Tədbirə onlayn qoşulan Almaniyanın Auqsburq Universitetinin professoru Klaus Vulf konfransla bağlı fikirlərini səsləndirib. Qeyd olunub ki, Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü ilə bağlı keçirilən konfrans öz əhəmiyyəti ilə seçilir. Dünyanın bir sıra ölkələrindən olan alimlər, tələbələr bu konfransda iştirak etmək üçün ciddi şəkildə hazırlaşıblar.

Pakistan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddin Azərbaycan və Pakistan arasında olan sıx iqtisadi, siyasi, elmi və mədəni əlaqələrdən danışıb, konfransı elm adamları və tələbələr üçün mühüm imkan kimi dəyərləndirib.

Milli Məclisin təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, millət vəkili Sadiq Qurbanov, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri, millət vəkili Arzu Nağıyev, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Bakı Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Özbəkistan Dünyəvi Dillər Universiteti, Pedaqogika və psixologiya kafedrasının müdiri Dusmurod Djuraev, Özbəkistan-Finlandiya Pedaqoji İnstitutunun Tədris İşləri üzrə prorektoru Zarifa Muminova, Azərbaycan Katolik Kilsəsinin Apostol Prefekturasının sədr müavini Marek Jozey, Varşava Universitetinin professoru Danuta Chmelovskaya, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu Aleksiy Yuriyeviç Smirnov, Arizona Dövlət Universitetinin məsləhətçisi və ictimai siyasət eksperti Jannah Scott, Alban-Udi Xristian Dini İcmasının sədri Robert Mobili konfransa olan beynəlxalq səviyyəli maraqdan danışıblar. Çıxışçılar Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən söz açıblar. Bildirilib ki, ADU-da Ulu öndərin anadan olmasının 102-ci ildönümünə həsr olunan konfransın ənənəvi olaraq keçirilməsi dünyanın elmi və mədəni mühitinin diqqətinin ölkəmizə cəlb olunması baxımından vacib addımdır.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan müxtəlif etnik və dini icmaların dinc birgəyaşayışının təmin edildiyi bir ölkə olaraq formalaşdı. Ulu Öndər hər zaman vurğulayırdı ki, Azərbaycanın gücü onun müxtəlifliyindədir. Bu gün Azərbaycan ərazisində 30-dan çox etnik azlıq sülh və əmin-amanlıq şəraitində yaşayır. Hər bir xalqın mədəniyyəti, dili və dini sərbəst şəkildə qorunur və inkişaf etdirilir. Bu yanaşma, dövlət səviyyəsində multikulturalizmin bir dəyər kimi qəbul edilməsinin bariz nümunəsidir.

Konfrans işini bölmə iclasları ilə davam etdirib.

## Beynəlxalq elmi konfransın bağlanışı

Mayın 6-da Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI" VIII Beynəlxalq elmi konfransının bağlanışı olub.

ADU-nun Elmi işlər üzrə prorektoru, professor Həmidə Əliyeva konfransa marağın böyük olduğunu, bölmə iclaslarının uğurla keçirildiyini qeyd edib.

Bildirilib ki, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI" VIII Beynəlxalq elmi konfransında dünyanın səkkiz ölkəsindən qırxdan artıq nümayəndə iştirak edib.

Daha sonra bölmə iclaslarının yekunlarına dair hesabat dinlənilib. Hər bir bölmə üzrə ayrıca məlumat verildikdən sonra konfrans iştirakçılarına və təşkilatçılara təşəkkürünü bildirən Elmi işlər üzrə prorektor Həmidə Əliyeva konfransın uğurla başa çatdığını və bu işin yüksək peşəkarlıqla həyata keçirildiyini söyləyib.



ADU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Əliyeva konfrans çərçivəsində keçirilən görüşlər haqqında danışıb.

Qeyd olunub ki, Azərbaycan Dillər Universitetinin rəhbərliyi və kollektivi beynəlxalq əhəmiyyətli konfransların yüksək səviyyə keçirilməsi istiqamətində kifayət qədər təcrübəyə və bacarığa sahibdir. Bu da digər universitetlər üçün, təşkilatçılar üçün əlavə imkanlar deməkdir. Bildirilib ki, bu imkanların faydalılığı və zəruriliyi hər zaman xatırlanacaq.

Sonda konfransın işi ilə bağlı hazırlanmış video-çarx izlənilib.

# Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası

## VIII Beynəlxalq elmi konfransı haqqında təəssüratlar

*Mayın 6-da Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: Multikulturalizm və Tolerantlıq İdeologiyası" VIII Beynəlxalq elmi konfransda dünyanın 8 ölkəsindən qırxdan artıq nümayəndə iştirak edib.*

*Tədbirdə iştirak etmiş nümayəndələrin təəssüratlarını təqdim edirik:*

**Professor Necdet Ünüvar, Ankara Universitetinin rektoru**



"Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş beynəlxalq elmi konfransda iştirak etməkdən son dərəcə qürur duyuram. Bu beynəlxalq konfransa dəvət edildiyim üçün Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdullaya dərin təşəkkürümü bildirirəm. Ümumiyyətlə, Ankara Universiteti ilə Azərbaycan Dillər Universiteti arasında elmi, beynəlxalq əməkdaşlıq çərçivəsində bir sıra mühüm görüşlər həyata keçirilib. Bu görüşlər qarşılıqlı dostluq münasibətlərini ehtiva edir.

Bu gün Azərbaycan Dillər Universitetində keçirilən Ümummilli Liderin anadan olmasının ildönümünə həsr olunmuş beynəlxalq elmi konfrans çox yüksək dərəcədə təşkil olunub. Ulu Öndər Heydər Əliyevin ad günü ilə bağlı olan konfransa təkcə Azərbaycandan deyil, həm də bir çox ölkələrdən çoxlu sayda qonaqlar dəvət olunmuşdu. Konfransın açılış mərasimində natiqlər çox məzmunlu və dəyərli çıxışlar etdilər. Tələbələr də bu konfransda iştirak etmək üçün ciddi hazırlaşmışdılar".

**Şahid Mahmud Kayani, Pakistan Milli Müasir Dillər Universitetinin rektoru**



"Ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunan konfransda iştirak etməkdən son dərəcə məmnunam. Bu tədbirə dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələrindən, elm, mədəniyyət və ictimaiyyət nümayəndələrinin qatılması konfransı daha da möhtəşəm edir. Bu kimi tədbirlər Azərbaycan və Pakistan xalqları arasında mədəni və elmi əlaqələrin güclənməsinə mühüm töhfə verir. Konfrans həmçinin gələcək elmi görüşlərin keçirilməsi üçün geniş imkanlar açır".

Azərbaycan xalqının dostluq, sevgi və mehriban münasibətini yüksək qiymətləndirən rektor Azərbaycan Dillər Universiteti ilə qarşılıqlı elmi əməkdaşlığın və tərəfdaşlığın önəmini, akademik, mədəni və texnoloji sahələrdə əməkdaşlığın perspektivliyini vurğulayıb.

**Professor Valerio de Cesaris, Peruca Əcnəbilər Universitetinin rektoru**



"Konfrans həm elmi baxımdan, həm də beynəlxalq dialoq baxımından olduqca maraqlı və faydalı oldu. Burada müzakirə olunan mövzular multikulturalizmin müxtəlif aspektlərini dərindən araşdırmaq üçün mühüm imkan yaratdı. Bu cür tədbirlər qlobal səviyyədə qarşılıqlı anlaşma və mədəni əməkdaşlıq üçün vacibdir. Gələcəkdə də bu təşəbbüslərdə iştirak etməyə hazıram".

**Dr. Jannah Scott, Arizona Dövlət Universitetinin məsləhətçisi**



"Azərbaycan və Azərbaycan Dillər Universiteti haqqında çox böyük, çox gözəl təəssüratım var. "Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası" VIII Beynəlxalq elmi konfransın keçirilməsi çox vacib addımdır. Konfrans çox yüksək səviyyədə təşkil olunmuşdu. Elmi məqalələr dərin və aktual idi. Amma eyni zamanda tədbirin ruhunda çox güclü bir multikulturalizm vardı - iştirakçılar arasında səmimiyyət, hörmət və mədəni ünsiyyət ön planda idi. Tələbələr məni həm düşündürdü, həm də enerji ilə doldurdu. Onlardan biri mənə dedi ki, onlar talelərinə sahib çıxmaq istəyirlər və bu tale Azərbaycan xalqının multikultural kimliyi ilə sıx bağlıdır. Bu, mənim üçün çox təsirli oldu. Gənclərin bu qədər şüurlu və məqsədyönlü olması gələcək üçün ümidvericidir. Burada multikulturalizmin ruhunda böyük zənginlik var. Fərqinə varmışam ki, multikulturalizm yalnız dövlət siyasəti kimi deyil, eyni zamanda Azərbaycan xalqına xas olan bir həyat tərzidir. Bu dəyərlər artıq insanların qanına hopub. Azərbaycanda bunu yalnız siyasi səviyyədə deyil, gündəlik həyatın bir parçası kimi görmək mümkündür. Bu gözəl tədbirə dəvət olunduğuma görə çox minnətdaram."

**Professor Zarifa Muminova, Özbəkistan Pedaqoji İnstitutunun prorektoru**




"Konfrans çox gözəl keçdi. Çox yaxşı təşkil olunmuşdu. Hörmətli rektorumuz başda olmaqla, Azərbaycan Dillər Universitetinin kollektivinə və ictimaiyyətinə təşəkkür edirik. Bakı şəhərinin, bakılıların və ümumilikdə azərbaycanlı qardaşlarımızın necə insansevər və mehriban olduqlarına bir daha şahid olduq. Konfrans çox aktual bir mövzuya həsr olunmuşdu. Bu gün qlobal dünyada millətlərin və müxtəlif dinlərin nümayəndələrinin bir arada yaşaması, eyni ölkənin inkişafı üçün birgə çalışmaları baxımından tolerantlıq böyük önəm daşıyır. Bu səbəbdən bu konfransın mövzusunu olduqca vacib hesab edirəm.

Eyni zamanda vurğulamaq istəyirəm ki, Ümummilli Lider Heydər Əliyev yalnız öz milləti üçün deyil, bütün Türk dünyası üçün tolerantlığın, millətə sədaqətin və vətənsevərliyin nə demək olduğunu nümayiş etdirən bir örnəkdir. Bu, biz Türk övladları üçün bir məktəbdir, bir nümunədir.

Universitetlərimiz arasında əməkdaşlıq artıq başlayıb. İlk mərhələlərdə təməl əməkdaşlıq prinsiplərini müəyyənləşdirmişik. Gələcəkdə Azərbaycan Dillər Universiteti ilə dil, mədəniyyət və sivilizasiya mərkəzləri yaratmaq, eləcə də akademik və elmi-tədqiqat sahəsində ortaq layihələr həyata keçirmək niyyətindəyik. Arzumuz odur ki, bizim tələbələrimiz Azərbaycan Dillər Universitetində təhsil alsınlar, eyni zamanda azərbaycanlı gənclər Səmərqəndə gəlib təhsil alsınlar. Coğrafi olaraq bir az uzaq olsaq da, bizi birləşdirən ortaq mədəniyyət, mənəviyyat, dil və din var."

**Professor Danuta Chmelovskaya, Varşava Universiteti**



"Azərbaycan və Polşa arasında formalaşmış dərin dostluq münasibətləri bu gün də davam edir. Polşa oxucuları Azərbaycan dilindən tərcümə edilən əsərləri böyük maraqla qarşılayır və sevə-sevə oxuyurlar. Azərbaycan dili mənim özüm üçün də olduqca səmimi və canayaxındır. Bu, xalqın öz mədəniyyətində və münasibətlərində olan istiliyi əks etdirir. Azərbaycana beşinci dəfə gəlirəm. İlk dəfə 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən təşkil olunan bir konfransda iştirak etmişdim. O vaxtdan bəri demək olar ki, hər il bura gəlirəm. Azərbaycanı sevirəm, Azərbaycan xalqını sevirəm, sizi sevirəm. Azərbaycan xalqı çox qonaqpərvərdir. Hər dəfə burada olmaq mənim üçün böyük bir sevincdir. Hər dəfə gələndə opera tamaşalarına gedirəm, mədəniyyət xadimləri ilə görüşürəm. Konfranslara qatılıram və budəfəki konfrans Ümummilli Lider Heydər Əliyevə həsr olunub. Çox maraqlı və əhəmiyyətlidir. Mən bir bölmənin moderatoru idim. Orada çağdaş mövzularda çox maraqlı çıxışlar eşitdim. Öz çıxışımda isə akademik Kamal Abdulla haqqında danışdım. O, həm alim, həm də yazıçıdır. Onun romanları Polşada nəşr olunub və yaxşı tanınır. Onun sayəsində Polşada çağdaş Azərbaycanla bağlı ətraflı məlumatlara malikik. Çünki onun Polşa ilə sıx əlaqələri var."

**Aleksiy Smirnov, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının yepiskopu**



"Bugünkü konfransın mövzusu son dərəcə aktual və vacibdir. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş beynəlxalq konfransa dəvət edildiyim üçün Azərbaycan Dillər Universitetinin rəhbərliyinə dərin təşəkkürümü bildirirəm.

Bu gün Azərbaycanda tolerantlıq və multikulturalizm öz inkişafının yüksək səviyyəsinə çatıb. Təbii ki, bu işdə ümummilli lider Heydər Əliyevin çox böyük xidmətləri olub. Məhz Ulu Öndərin həyata keçirdiyi düzgün siyasət nəticəsində bu gün Azərbaycanda bütün xalqlar qarşılıqlı hörmət şəraitində yaşayırlar. Bu gün rus icmasının nümayəndələri ilə yanaşı, Azərbaycanda yaşayan digər çoxsaylı xalqlar da Azərbaycanın ümumi inkişafına böyük töhfələr verirlər. Bunu ölkənin inkişafının mühüm amili kimi qiymətləndirə bilərik.

Yaxın günlərdə Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill də Azərbaycanda səfərdə olarkən bu nüansı xüsusi qeyd etdi ki, bu gün Azərbaycanda mövcud olan tolerantlıq bütün dünyaya nümunədir. Hər iki xalq arasında möhkəm əlaqələr dövlətlərarası münasibətlərin bünövrəsini təşkil edir.

Azərbaycanın pravoslav icması dövlətlərarası münasibətlərin mühüm amilidir. Əminəm ki, Azərbaycanda dinlər və millətlər arası sülh, anlaşma, qarşılıqlı dəstək daimi olacaq. Əminəm ki, bu müsbət dinamika gələcəkdə də qorunub saxlanılacaq. Bu gün tolerantlıq yaşayır. Xalqlar birgə yaşayırlar. Azərbaycan modelini öyrənirlər".

**Professor Klaus Vulf, Almaniyanın Auqsburq Universiteti**



"Azərbaycanla Almaniya arasında yalnız dövlətlərarası deyil, cəmiyyətlər səviyyəsində də dostluq və əməkdaşlıq münasibətləri mövcuddur. Xüsusilə, müsəlmanlar və xristianlar arasında formalaşmış qarşılıqlı anlayış və dostluq əlaqələri bu sahədə görülən zəhmətin, irəli sürülən ideyaların və birgə səylərin nəticəsidir. Bu model digər ölkələr üçün də nümunə ola bilər və multikultural cəmiyyətin qurulmasında davamlı dialoqun və əməkdaşlığın rolu danılmazdır".

**Arzu Nağıyev, Milli Məclisin üzvü**



"Hər il olduğu kimi bu il də Azərbaycan Dillər Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: Multikulturalizm və Tolerantlıq İdeologiyası" VIII Beynəlxalq elmi konfransı keçirilir və bu çox mühüm əhəmiyyətə malikdir.

Bu konfransa dünyanın bir sıra nüfuzlu ali təhsil müəssisələrindən olan nümayəndə heyəti, elm, mədəniyyət, ictimaiyyət nümayəndələri qatılıb.

Qeyd etmək istəyirəm ki, konfransa diqqət həddindən artıq böyükdür. ADU ilə bir sıra universitetlər arasında müqavilələrin imzalanması beynəlxalq əməkdaşlıq çərçivəsində də mühüm əhəmiyyət kəsb edir.

Ulu Öndər Heydər Əliyevin vaxtı ilə təməlini qoyduğu arzular, ideyalar bu gün həyata keçməkdədir və bu işdə Azərbaycan Dillər Universitetinin öz çəkisi, öz rolu var.

Digər mühüm məsələlərdən biri də konfrans çərçivəsində Milli Məclisin üzvlərinin çıxışlarıdır ki, bu da qanunvericilik baxımından öz həllini tapmalı olduğu məsələlərin gerçəkləşməsinə şərait yaratmış olur.

Konfransda çıxış edən dəyərli ziyalılar Ulu Öndərin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlərini bir daha qeyd etdilər. Eyni zamanda Ali Baş Komandan İlham Əliyevin məhz bugünkü siyasətinin aparılmasında suverenlik, ərazi bütövlüyü, Azərbaycan xalqının rifah halının yaxşılaşdırılması üçün atdığı daxili və xarici siyasət Ulu Öndər Heydər Əliyevin irsi ilə bağlıdır. 44 gün ərzində əldə olunmuş Zəfərlə bağlı konfrans iştirakçıları, xüsusilə də xarici qonaqlar öz fikirlərini bildirdilər. Ümumiyyətlə, konfrans yüksək səviyyədə təşkil olunub, bununla əlaqədar konfransın təşkilatçılarına təşəkkür edirik".

**Fuad Nurullayev, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini**




"Bu gün Azərbaycan Dillər Universitetində keçirilən konfrans çox dəyərli beynəlxalq tədbirdir. Ümummilli Lider Heydər Əliyev həmişə xalqla birgə yaşayıb və yaşayacaqdır. Ulu Öndər düşüncələrimizdə həmişə qalan bir dahi şəxsiyyətdir. Həqiqətən də, Ulu Öndərin izləri Azərbaycanın keçmişində, bu günündə və gələcəyində həmişə olacaqdır. O, ruhən həmişə bizimlədir. Bu gün Prezident İlham Əliyev Ulu Öndərin qoyduğu irsi uğurla davam etdirir.

Qarabağ azad edildikdən sonra cənab Prezidentimizin dediyi sözlər mənim heç vaxt yadımdan çıxmır. Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev əzəli torpaqlarımız azad olanda dedi ki, mən Qarabağ azad olandan sonra Ulu Öndərin məzarını ziyarətə getdim və dedim ki, Sizin tapşırıqlarınız icra olundu, Qarabağ azaddır.

Bu gün biz azad olmuş Qarabağın gündən-günə çiçəklənməsini və inkişafını görürük. İndi Qarabağa gələn qonaqlar bu yüksəlişi görür və heyrətlənirlər. Bu, Azərbaycanımızın bu günü və sabahıdır. Bu qüdrətli dövləti bizə əmanət edən Ulu Öndərdir. Biz bu əmanəti qorumalıyıq, Ulu Öndərin ənənələrini daim yaşatmalıyıq".

# ADU öz məzunlarını diqqətdə saxlayır

## *Məzunların professionallıq və peşə vərdişlərinin təkmilləşdirilməsi konfransı*

Azərbaycan Dillər Universitetinin rəhbərliyi məzunlarla iş və karyera imkanlarının qiymətləndirilməsi, məzunların təhsil keyfiyyətlərinin artırılması istiqamətində silsilə tədbirləri davam etdirir. Bu məqsədlə şimal-qərb bölgəsinə təşkil olunan növbəti regional konfrans öz aktuallığı ilə seçilib. Azərbaycan Dillər Universitetinin məzunlarının professionallıq və peşə vərdişlərinin təkmilləşdirilməsi 2-ci regional (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala) konfransı çərçivəsində ADU-nun rektoru, akademik Kamal Abdulla, pedaqoji heyət və tələbələr məzunlarla görüşüb, bir sıra tədbirlər, elmi-pedaqoji seminarlar keçirilib.

Ulu öndər Heydər Əliyevin həyat fəaliyyətini əks etdirən stendlərə baxılıb.

Daha sonra konfransın açılış mərasimi baş tutub. Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə tədbir iştirakçılarını salamlayıb, konfransın önəmindən söz açıb. Bildirilib ki, ADU məzunlarının professionallıq və peşə vərdişlərinin təkmilləşdirilməsi istiqamətində keçirilən görüşlər, təşkil olunan seminar və təlimlər mühüm əhəmiyyət kəsb edir.

Mübariz Əhmədzadə Azərbaycanda təhsil istiqamətində görülən mühüm işlər haqqında danışıb. Ulu öndər Heydər Əliyevin təhsil siyasətinin əhəmiyyəti diqqətə çatdırılıb, rilib. QS reytinqlər cədvəlində ADU-nun uğurları barədə danışılıb. Qeyd olunub ki, ADU son illər beynəlxalq əlaqələrin qurulmasında da fəallığı ilə seçilir. Bu da təhsilin keyfiyyətinə və tədrisin müasir metodlarla aparılmasına mühüm təsir göstərir.

Milli qəhrəman Mübariz İbrahimov adına Biləsuvar rayon bağça-lisey kompleksinin direktoru Aqşin Bağırov konfrans iştirakçılarını salamlayıb, konfransın önəmindən söz açıb. Liseyin fəaliyyəti haqqında məlumat verilib, ADU-nun regional konfransının ilk dəfə olaraq Biləsuvarda keçirilməsi diqqətə çatdırılıb.

Qeyd olunub ki, ADU regional konfranslar keçirməklə,



Aprelin 4-də Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla və universitet kollektivi Zaqatala rayonuna səfər ediblər. Ulu öndər Heydər Əliyevin büstü ziyarət olunub, önünə gül dəstələri qoyulub.

Zaqatala rayon icra başçısı Mübariz Əhmədzadə ADU rəhbərliyini və kollektivini salamlayıb, ADU məzunlarının professionallıq və peşə vərdişlərinin təkmilləşdirilməsi" 2-ci regional konfransının əhəmiyyətindən danışıb. Qeyd olunub ki, ADU-nun region təhsil qurumları arasında elmi, mədəni əməkdaşlıq üçün əlverişli imkanlar mövcuddur.

Səmimi qarşılanmaya və qonaqpərvərliyə görə təşəkkürünü bildirən ADU-nun rektoru, akademik Kamal Abdulla qeyd edib ki, ADU hər zaman öz məzunlarını diqqətdə saxlayır. Bu məqsədlə regionlarda əmək fəaliyyəti ilə məşğul olan məzunlarla mütəmadi əlaqə saxlanılır, ADU-nun peşəkar professor-müəllim heyəti tərəfindən təlim və seminarlar təşkil olunur.

Zaqatala rayon Heydər Əliyev Mərkəzi ziyarət olunub. Prezident İlham Əliyevin təhsil sahəsinə diqqət və qayğısı vurğulanıb.

ADU-nun rektoru, akademik, Xalq yazıçısı Kamal Abdulla məzunlarla işin düzgün qurulmasının, onların diqqətdə saxlanılmasının vacibliyindən danışıb:

"Məzunlarla görüşmək bizim üçün sevindirici haldır. Biz hesab edirik ki, məzunlarla görüş onların peşə vərdişlərinə və peşəkarlıq səviyyəsinə öz müsbət təsirini göstərir. Bizi düşündürən məsələlər əsasən məzunlarımızın pedaqoji fəaliyyətini dəstəkləmək, onları yeni tədris metodları ilə qarşılıqlı şəkildə tanış etməkdir. Keçiriləcək seminarlar, təlimlər, görüşlər gələcək elmi əməkdaşlıq üçün də əlverişli imkanların yaradılması deməkdir. Ulu öndər Heydər Əliyevin tələblərlə bağlı fikrini daima xatırlayır və səsləndirirəm. Ulu öndər Heydər Əliyev tələbələrlə görüşündə üzünü bizə tutub demişdir: Bu tələbələr mənim sizə əmanətimdir. Bu fikir bizim təhsil strategiyamızın əsas ideyasına çevrilib".

ADU-da tədris olunan xarici dillər haqqında məlumat ve- öz məzunlarını diqqətdə saxlamaqla təhsildə yeniliyə imza atmış olur.

ADU-nun Təhsil fakültəsinin dekanı, professor Hikmət Əlizadə konfrans iştirakçılarını salamlayıb, konfransın əhəmiyyəti haqqında danışılıb. Bildirilib ki, əməkdaşlıq prinsipi olduqca vacib elementlərdən biridir. Təhsil prinsipləri haqqında məlumat verən dekan regional konfransların keçirilməsinin gələcək elmi nailiyyətlərin əldə olunması üçün zəruri olduğunu vurğulayıb.

Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri Günay Mahmudova konfransının fəaliyyətinə uğurlar arzulayıb. O, Regional Təhsil idarəsinin fəaliyyəti haqqında məlumat verilib.

Şagirdlərin təlim-tərbiyəsi, bilik və bacarıqlarının artırılması istiqamətində dövlət siyasətinə uyğun işlərin aparılması diqqətə çatdırıb. ADU-nun regional konfransının altı rayonu əhatə etməsi və bununla da xarici dilləri tədris edən müəllimlərin pedaqoji fəaliyyətini dəstəkləmək baxımından önəmdən bəhs olunub.

# Regional konfransla bağlı təəssüratlar



Aprelin 3-4-də Azərbaycan Dillər Universitetinin məzunlarının professionallıq və peşə vərdişlərinin təkmilləşdirilməsi" 2-ci regional (Balakən, Qax, Qəbələ, Oğuz, Şəki, Zaqatala) konfransı keçirilib. İki gün davam edən konfrans çərçivəsində bir sıra elmi görüşlər, tədbirlər keçirilib.

"Azərbaycan Dillər Universitetinin məzunlarının professionallıq və peşə vərdişlərinin təkmilləşdirilməsi" 2-ci regional konfransının iştirakçılarının təəssüratlarını diqqətinizə çatdırırıq:

**Əsgərova Nərmin:** (Balakən rayonu, Bedağar kənd orta məktəbinin İngilis dili müəllimi, 2012-ci il məzunu)

"Konfransın təşkilatçılarına, doğma universitetimizin rəhbərliyinə, kollektivə və müəllimlərə təşəkkürümü bildirirəm. Müəllimlərin peşə vərdişləri və karyera imkanları ilə bağlı keçirilən təlimlər, seminarlar öz unikallığı ilə seçilir. Bu da biz məzunlar üçün mühüm təcrübədir".

**Mirəliyeva Günay:** (Balakən rayon Nizami Gəncəvi adına 1 saylı tam orta məktəbin Alman dili müəllimi, 2012-ci il məzunu)

"Konfransa böyük maraq var. İlk dəfədir ki, məzunların karyera və iş imkanları ilə maraqlanan universitetin məzunu olduğum universitetin olması ayrıca xoş təəssürat bağışlayır. İnanıram ki, müəllimlər konfransının karyera və təlim imkanlarından səmərəli şəkildə faydala biləcəklər. Hər kəsə uğurlar arzu edirəm".

**Bəkirova Pərvanə:** (Şəki rayon Cəfərabad kənd tam orta məktəbin İngilis dili müəllimi, 1987-ci il məzunu)

"ADU tarixi bir uğura imza atıb. Bu uğur Azərbaycan təhsili üçün çox önəmlidir. Məzunu olduğum universitetinin bizi unutmaması bizi çox qürurlandırır. Buna görə rektorumuz, hörmətli Kamal müəllimə və onun komandasına öz minnətdarlığımı bildirirəm".

**Məmmədova Gülnarə:** (Balakən rayon N.Gəncəvi adına orta məktəbin Alman dili müəllimi, 1984-cü il məzunu)

"Konfransın iştirakçılarına uğurlar arzu edirəm. Müəllimlərin bilik və bacarıqlarının artırılması istiqamətində görülən işlər təqdirəlayiqdir. ADU rəhbərliyi və kollektivi mühüm bir uğura imza atmaqdadır. Bu mənada həm də bir məzun kimi özümüzü də təbrik edirəm".

**İradə Sultanova:** (Qax şəhər 2 nömrəli məktəb-liseyin İngilis dili müəllimi, 1997-ci il məzunu)

"Bu gün keçirilən regional konfrans biz məzunlar üçün tarixi bir hadisə kimi yadda qaldı. ADU nüfuzlu ali təhsil müəssisəsi kimi məzunlarının əmək fəaliyyətinə, karyera yoluna böyük önəm verir. Bu da biz məzunlara həm stimul verir, həm də yeni elmi əməkdaşlıq üçün əlverişli imkanlar yaradır.

ADU-nun rektoru, akademik Kamal Abdullaya bu möhtəşəm təşəbbüsünə görə minnətdarlığımızı bildiririk. İxtisasımızla bağlı təşkil olunan seminarlara, panel iclaslarına böyük maraq var idi. Bu görüşlərin davamlı olmasını arzu edərdik".

# Heydər Əliyev və Türk Dünyası



May ayında müasir Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünü böyük təntənə ilə qeyd etdik. Azərbaycan dövlətinin ilk zəfəri ulu öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə hakimiyyətə gəlməsi olmuşdur. Biz xoşbəxt nəsilik ki, ulu öndər Heydər Əliyevin əldə etdiyi qurtuluş dastanının canlı şahidiyik. Tarix boyu parçalanmalara, qətliamlara, deportasiyalara və soyqırımlara məruz qalan millətimiz 1993-cü ildə ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə təhlükəsiz bir həyata qovuşdu, Türk dünyasının Azərbaycan budağı qırılıb yox olmaqdan xilas edildi.

Ulu öndər Heydər Əliyev Azərbaycan xalqına qarşı tarixən edilən bütün haqsızlıqları, ədalətsizlikləri dərindən bildiyi üçün böyük təcrübəsi və səbri sayəsində həm Sovet Azərbaycanına rəhbərlik edərkən, həm də Sovetlər Birliyində Nazirlər Sovetinin birinci müavini vəzifəsində çalışarkən Azərbaycanda görülən hər bir yenidənqurma işlərində böyük xidmətləri olmuş, həm də o dövrdə dövlətimizi xain erməni əməllərindən qorumuşdur.

Sovetlər Birliyi dağıldıqdan sonra ölkəmizin ümumi mənzərəsinin çox acınacaqlı olduğu, Azərbaycan millətinin faciələrlə üzləşdiyi bir vaxtda ulu öndər Heydər Əliyev ilk olaraq "Türkün qapısı" olan Azərbaycanın Naxçıvan bölgəsinə gələrək ilk milli mübarizəsinə başlamış, Türkiyə - Azərbaycan birliyinin gücləndirilməsi yolunda böyük xidmətlər göstərərək, Naxçıvanda dinclik, sabitlik və təhlükəsizliyi təmin etmişdir. "Türkün qapısı" Naxçıvanda görülən bu mühüm işlər ümumilikdə Türk dünyası üçün görülən dəyərli xidmətdir. Həmin dövrdə Türkiyə dövlətinin rəhbəri Süleyman Dəmirəllə dostluq və qardaşlıq gələnəyini daha sonra "bir millət, iki dövlət" dəyərləri adı altında Ulu Öndərin sadiq davamçısı Prezident İlham Əliyev davam etdirərək Türkiyə-Azərbaycan qardaşlığını böyük vəhdətə çevirmişdir.

Vaxtilə Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan 1999-cu ildə İstanbul Bələdiyyə başqanı olarkən Azərbaycana gələrək ulu öndər Heydər Əliyevi ziyarət edəndə Türkiyə mətbuatından ona suallar yönədildi ki, "nə üçün siz Ulu Öndəri ziyarət etməyə gəlmisiniz?" Rəcəb Tayyib Ərdoğan cavabında demişdir ki, "biz Ulu Öndərin təcrübəsi ilə tanış olmağa gəlmişik". Bu bilinənlərlə yanaşı, bir çox hökumət təmsilçiləri də Ulu Öndərin fikirlərindən yararlanmış və bunun faydalarını dünya diplomatiyasında görmüşlər.

1993-cü ildə xalqımızın ulu öndər Heydər Əliyevi Azərbaycan dövlətinin rəhbərliyinə dəvət etməsi günəşin yenidən millətimizə doğmasına səbəb olmuşdur. Bu gəliş Tanrının xalqımıza ikinci lütfü olmuşdur. Tanrı Azərbaycanın yer üzündən silinməməsi üçün bizlərə yenidən ulu öndər Heydər Əliyevi lütf etmişdir. Əgər bu lütf olmasaydı, bizim aqibətimiz qardaş Türkiyənin parçalanma proyekti olan "Sevr"dən daha dəhşətli olacaqdı. Türkiyədə bu parçalanmanın qarşısını alan Türkiyə Cümhuriyyətinin qurtarıcısı Mustafa Kamal Atatürk, Azərbaycanda isə ulu öndərimiz Heydər Əliyev olmuşdur. Hər iki liderin milli mübarizəsi bütövlükdə Türk dünyasının bugünkü birliyini və təhlükəsizliyini təmin etmişdir. Öz sağlamlığını, səhhətini düşünmədən, xalqımızın xoşbəxt gələcəyi naminə yorulmadan çalışan ulu öndər Heydər Əliyev Azərbaycanı parçalanmaqdan və yox olmaq təhlükəsindən qorumaqla həm Türk dünyasının Azərbaycan budağını xilas etdi, həm də bütünlükdə Türk dünyasına çox dəyərli xidmət etdi.

Həyatının mənasını Azərbaycan dövlətinə, xalqına xidmətdə görən ulu öndər Heydər Əliyev Azərbaycan həqiqətlərini bütün dünyaya çatdırırdı. Dünyaya Azərbaycan gerçəkliklərini çatdırmaq ölkə daxilində aparılan mübarizə qədər çətin idi. Bu mübarizələrdən mətanətlə çıxan Dahi Liderimiz Türk dünyasının Azərbaycan budağını xilas etdi. Ulu Öndər yaxşı bilirdi ki, gələcək hədəflərə iri addımlarla getmək üçün mədəni inkişafı həyata keçirtmək yolunda iqtisadi gücə də malik olmaq lazım idi. Bu səbəbdən ulu öndər Heydər Əliyev gələcəkdə türk dövlətlərinə xidmət edəcək böyük enerji layihəsi olan Bakı-Ceyhan neft boru kəmərini uğurla həyata keçirərək, ilk neft ixracını gerçəkləşdirdi, Azərbaycan gündəngünə inkişaf edərək çiçəkləndi.

Şükürlər olsun ki, bu gün milli əmanət əmin əllərdədir. Ulu Öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin liderliyi ilə xalqımız böyük Qarabağ Zəfərinə qovuşmuşdur. Şanlı Qarabağ Zəfəri bütövlükdə Türk dövlətlərinin birlik və təhlükəsizlik, dünyamızın isə ədalət zəfəridir. Əlbəttə ki, Azərbaycanın əldə etdiyi Böyük Zəfər Ulu Öndərin siyasətinin təntənəsidir. Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı, Türk dünyası birliyi yolunda əldə etdiyi hər bir zəfər, Bilgə xanın dediyi kimi, ədalət, sülh, dostluq, dinclik, sabitlik, dünya insanlığının təhlükəsizliyi üçündür. Bu isə ümumilikdə Türk millətinin xarakterini izah edir.

Sonda gənclərə müraciət etmək istəyirəm. Ulu öndər Heydər Əliyev demişdir ki, gələcək gənclərindir. Ona görə də hər bir gəncimiz milli zəfərləri qorumaq yolunda milli mənəvi dəyərlərlə tərbiyələnməli, elmli, bilikli olmalıdırlar ki, əldə edilən zəfərlərimiz əbədiyyətə qədər varlığını qoruya bilsin! Bu yol və dəyərlər ümumilikdə bütün Türk dünyası gənclərinin parolu olmalıdır. Bu milli parolla yaşayan hər bir gəncimiz özündən sonrakı gəncliyə deməlidir ki, bizim bu dövlətə, bu millətə və Türk dünyası birliyinə xidmətlərimiz bitməmişdir, bu xidmət əbədiyyətə qədər davam etməlidirlər ki, Ulu Öndərin mirası və milli birliyimiz daim var olsun.



**Cəlal İBRAHİMLİ,**
**Türk Dünyası Araşdırmaları Mərkəzinin müdiri**

# Əbədiyaşar liderimiz

Azərbaycan tarixinin son yüzilliyində baş verən hadisələr göstərdi ki, bir xalqın taleyində lider amili həlledici rol oynayır. Xalqı çətin sınaqlardan və mübarizələrdən çıxarmaq, onu yeni inkişaf mərhələsinə çatdırmaq yalnız əsl liderlərin işi ola bilər. Bu mənada, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin tarixi rolu danılmazdır. Bu il böyük təntənə ilə qeyd etdiyimiz Ulu Öndərin anadan olmasının 102-ci ildönümü bu böyük şəxsiyyətin həyat və fəaliyyətinə dərin nəzər salmaq üçün mühüm fürsətdir.

Ümummilli lider Heydər Əliyev 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra respublikamızın bütün sahələrində yeniləşmə prosesi başlandı. Heydər Əliyev iqtisadi, sosial və mədəni sahələrdə ciddi islahatlar apararaq Azərbaycanı SSRİ-nin qabaqcıl respublikalarından birinə çevirdi. Onun rəhbərliyi ilə Azərbaycanda sənaye müəssisələri tikildi, kənd təsərrüfatı sahəsində müasir metodlara keçid başladı. Xüsusilə milli kadrların hazırlanması istiqamətində atılan addımlar gələcək müstəqil Azərbaycanın təməlini təşkil etdi. Onun təşəbbüsü ilə minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərildi və onlar sonradan ölkənin inkişafında aparıcı mövqe tutdular. Bu proses təkcə intellektual potensialın artırılmasına deyil, həm də milli kimliyin qorunmasına xidmət edirdi.

Ulu Öndərin 1982-ci ildə SSRİ rəhbərliyində yüksək vəzifəyə - Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin olunması onun nə qədər güclü və strateji şəxsiyyət olduğunun sübutudur. Həmin dövrdə Heydər Əliyev bütün ittifaq məkanında tanınan və hörmət edilən dövlət xadiminə çevrildi. O, hər zaman Azərbaycanı unutmur, respublikanın maraqlarını hər səviyyədə müdafiə edirdi.

1990-cı illərin əvvəllərində SSRİ-nin süqutu və Ermənistanın təcavüzü ilə Azərbaycan böyük fəlakətlər və çətinliklərlə üz-üzə qaldı. Xaos, idarəolunmazlıq və separatizm təhlükəsi ölkəni parçalanma həddinə çatdırmışdı. Məhz belə bir zamanda xalq öz xilaskarına - Heydər Əliyevə müraciət etdi. Ulu Öndərin 1993-cü ildə yenidən hakimiyyətə qayıdışı ölkədə sabitliyin və inkişafın başlanğıcı oldu. Qısa müddətdə dövlət quruculuğu istiqamətində mühüm islahatlar həyata keçirildi, yeni Konstitusiya qəbul edildi, hüquqi dövlət quruculuğuna başlanıldı.

Ümummilli lider Heydər Əliyevin neft strategiyası xüsusilə diqqətəlayiqdir. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın dünya enerji bazarında önəmli yer tutmasına səbəb oldu. Bu müqavilə təkcə iqtisadi yox, həm də siyasi baxımdan ölkəmizin müstəqilliyini möhkəmləndirdi. Xarici investorların cəlbi ilə ölkəyə milyardlarla dollar sərmayə daxil oldu, yeni iş yerləri açıldı, infrastruktur yeniləndi.

Ulu Öndərin milli-mənəvi dəyərlərə bağlılığı onun siyasətində mühüm yer tuturdu. O, daim qeyd edirdi ki, müasirliklə yanaşı, milli kimliyimizi də qorumalıyıq. Ulu Öndərin mədəniyyət, incəsənət və ədəbiyyat sahəsində gördüyü işlər, ziyalılara, yaradıcı insanlara göstərdiyi diqqət bunun sübutudur. Onun təşəbbüsü ilə Azərbaycan dili dövlət dili kimi Konstitusiyada təsbit olundu, milli tarixin saxtalaşdırılmasına qarşı mübarizə gücləndirildi.

Ümummilli lider Heydər Əliyev gənclərə xüsusi önəm verirdi. "Gənclər bizim gələcəyimizdir" şüarı onun siyasətində əsas prinsip idi. Gənclərin təhsili, vətənpərvər ruhda yetişməsi və dövlətçilik ideyalarına sadiqliyi onun daim diqqətində idi. Bu gün ölkənin müxtəlif sahələrində çalışan minlərlə gənc məhz o dövrdə atılan addımların nəticəsində formalaşıb.

Ulu Öndərin ideyaları bu gün də yaşayır və reallaşır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Ərazi bütövlüyümüzün bərpası, Qarabağın azad olunması bu siyasətin təntənəli nəticəsidir. Heydər Əliyev Fondu isə onun adını yaşadan, xeyriyyəçilik və sosial layihələrlə xalqın qəlbində əbədi yaşayan bir qurumdur.

Bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş tədbirlər, layihələr, elmi konfranslar bir daha sübut edir ki, xalq öz liderini unutmur və onu gələcək nəsillərə örnək kimi təqdim edir. Ulu Öndərin irsi yalnız bir dövrün deyil, gələcək əsrlərin yol xəritəsidir. Bəli, Heydər Əliyev özü demişdi: "Mənim həyatım xalqıma, dövlətimə xidmətlə keçib." Bu xidmətin miqyası və nəticəsi o qədər böyükdür ki, onun adı tariximizin ən uca zirvəsində əbədi yaşayacaq.



**Elşən HÜSEYNLİ,**
**Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin əməkdaşı**

# Suverenlik və Konstitusiya: Gəncliklə gələcəyə



**forum**

May ayının 7-də Azərbaycan Dillər Universitetində “Konstitusiya və Suverenlik ili” çərçivəsində “Suverenlik və Konstitusiya: Gəncliklə gələcəyə” mövzusunda Forum keçirilib.

Tədbir Azərbaycanın Dövlət Himninin səsləndirilməsi, Vətən müharibəsində həlak olmuş şəhidlərin xatirəsini birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Forum iştirakçılarını salamlayan Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla tədbirin əhəmiyyətini vurğulayaraq bildirib ki, Azərbaycan dövlətinin suverenliyinin möhkəmləndirilməsi, insan hüquqlarının qorunması və müstəqil dövlət quruculuğu Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsi kontekstində inkişaf edir. Azərbaycan dövləti müstəqilliyini bərpa etdiyi gündən etibarən hüquqi dövlət quruculuğu prosesinə xüsusi önəm verib və bu istiqamətdə böyük nailiyyətlər əldə olunub.

Akademik Kamal Abdulla forumda çıxışı zamanı milli dəyərlərin qorunmasının və hüquqi şüurun formalaşdırılmasının cəmiyyətin gələcək inkişafında mühüm rol oynadığını qeyd edib. Rektor belə tədbirlərin gənclərin hüquqi biliklərinin artırılması, onların vətəndaş məsuliyyətinin dərk olunması və fəal sosial mövqe nümayiş etdirməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva forum iştirakçılarını salamlayaraq bildirib ki, insan hüquq və azadlıqlarının müdafiəsi və təşviqi Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Dövlət müstəqilliyimizin bərpasından sonra ölkəmizdə hüquqi dövlət quruculuğu sahəsində ardıcıl və kompleks islahatlar həyata keçirilmiş, bu istiqamətdə fundamental hüquqi baza formalaşdırılmışdır.

Bildirilib ki, 18 may - 18 iyun tarixləri ölkəmizdə “İnsan Hüquqları Aylığı” elan edilib, həmin təşəbbüsə qoşulmaqla insan hüquqlarına həsr olunmuş silsilə maarifləndirmə tədbirləri keçirilir. “İnsan Hüquqları Aylığı” çərçivəsində hüquq və azadlıqların təbliği, ictimaiyyətin hüquqi biliklərinin artırılması, insan hüquqları sahəsində mövcud çağırışların müzakirəsi və milli səviyyədə həyata keçirilmiş fəaliyyətlərin ictimailəşdirilməsi nəzərdə tutulur. Xüsusilə 2025-ci ilin ölkəmizdə “Konstitusiya və Suverenlik İli” elan olunması nəzərə alınaraq, tədbirlərdə milli konstitusiya dəyərlərinin və qanunun aliliyinin təbliğinə xüsusi önəm verilir.

Forumda Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, dosent Zaur Əliyev “Azərbaycan Respublikasının Konstitusiyası və İnsan hüquqları”, ADU-nun Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsinin dekanı İbrahim Kazımbəyli “Heydər Əliyev irsi, müstəqil dövlətçilik və müasirlik”, ADU-nun Təhsil fakültəsinin dekanı Hikmət Əlizadə “Suverenlik xalqın milli sərvətidir”, ADU-nun tələbəsi Leyla Rzazadə “İkinci Qarabağ müharibəsində informasiya cəbhəsi: Azərbaycan Dillər Universitetinin tələbə və akademik heyətinin dəstəyi” mövzularında çıxış ediblər. Natiqlər Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının təmini və müdafiəsi istiqamətində görülmüş işlərdən, habelə dövlət müstəqilliyimizin bərpasından sonra ilk milli Konstitusiyanın qəbul olunması, ölkəmizdə həyata keçirilmiş hüquqi islahatlardan bəhs ediblər.

# ADU kollektivi Qaxda “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbirdə



Aprelin 4-də Azərbaycan Dillər Universiteti geniş tərkibdə professor-müəllim heyətinin (ADU) şimal-qərb bölgəsinə səfəri çərçivəsində Qax şəhər Vaqif Əliyev adına 3 nömrəli tam orta məktəbində “Konstitusiya və Suverenlik İli”nə həsr olunmuş tədbirdə iştirak ediblər.

Öncə Dövlət Himni səsləndirilib, torpaqlarımızın düşmən tapdağından azad edilməsi və dövlət suverenliyimizin bərpa olunması uğrunda canlarını qurban vermiş şəhidlərimizin, eləcə də Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı imzaladığı müvafiq Sərəncamın əhəmiyyətindən bəhs olunub.

ADU-nun rektoru, akademik Kamal Abdulla tədbir iştirakçılarını salamlayıb, “Konstitusiya və Suverenlik İli” elan edilməsi ilə bağlı çıxış edib.

Qeyd edilib ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur.

Şəki-Zaqatala Regional Təhsil İdarəsinin müdiri Günay Mahmudova çıxışında bildirib ki, ADU rəhbərliyinin səfəri təhsil ictimaiyyəti üçün çox önəmli hadisədir.

Qeyd olunub ki, keçirilən tədbirlər, konfranslar və görüşlər təhsil sahəsində çalışan əməkdaşların bilik və bacarıqlarının artırılması istiqamətində mühüm nəticələrin əldə olunmasına əlverişli imkan yaradır.

ADU-nun Təhsil fakültəsinin dekanı, professor Hikmət Əlizadə tədbir iştirakçılarını salamlayıb, yaradılan şəraitə və qonaqpərvərliyə görə təşkilatçılara öz təşəkkürünü bildirib.

Qeyd olunub ki, Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli Sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

Həmçinin dövlətçiliyin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması və ölkəmizin beynəlxalq mövqeyinin daha da gücləndirilməsi istiqamətində həyata keçirilən islahatlar barədə geniş müzakirələr aparılıb.

Görüşlərdə mövzu ilə bağlı şagird və müəllimlərlə geniş fikir mübadiləsi aparılıb, onların sualları cavablandırılıb.

Sonda ADU THİK tərəfindən şagirdlərə hədiyyələr təqdim olunub.

# Azərbaycanda “Konstitusiya və Suverenlik ili”

**dəyirmi masa**

Azərbaycan Dillər Universitetində (ADU) ADU Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi Beynəlxalq münasibətlər və Regionşünaslıq fakültəsi nəzdində Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrası ilə birgə 2025-ci il Azərbaycanda “Konstitusiya və Suverenlik ili” adlı dəyirmi masa keçirilib.

Tədbirdə rektorun humanitar məsələlər üzrə müşaviri Ələddin Əliyev, İngilis fransız dilləri fakültəsinin dekanı Vəfa Bənnayeva, Qafqazşünaslıq və Azərbaycan tarixi kafedrasının müdiri dos. Xatirə Hacıyeva, kafedranın müəllimləri dos. Namiq Kərimov, Sevinc Abbasova, Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin direktoru Cəmilə Əliyeva və İngilis fransız dilləri fakültəsinin III kurs tələbələri iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi, Vətən şəhidlərinin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzinin direktoru Cəmilə Əliyeva Prezident İlham Əliyevin 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan olunması ilə bağlı Sərəncamının dövlətçilik tariximiz, qanunlarımız, eləcə də suverenliyimizin bərpası prosesinin dərindən öyrənilməsi və geniş təbliği baxımından əhəmiyyətini diqqətə çatdırıb.

Bildirilib ki, müstəqil və suveren dövlətə sahib olan ölkəmizdə 2025-ci ilin “Konstitusiya və Suverenlik İli” elan edilməsi, ölkənin digər qurumlarında olduğu kimi, Azərbaycan Dillər Universiteti Elmi Kitabxana və İnformasiya Xidməti Mərkəzi də universitetin aparıcı strukturu kimi il çərçivəsində qarşıda duran ən mühüm vəzifələrdən birinci konstitusiyanın təbliği istiqamətində üzərimizə düşən vəzifələri yerinə yetirməkdir.

Kafedra müdiri dos. Xatirə Hacıyeva bildirib ki, vətənpərvərlik ruhunda yetişən, milli dəyərlərə bağlı gənclər formalaşdırmaq universitetin əsas prioritetlərindəndir. O qeyd edib ki, bu istiqamətdə həyata keçirilən tədbirlər gənclərdə dövlətçilik düşüncəsinin formalaşmasına xidmət edir. Gənclər tərəfindən maraqla qarşılanan bu tədbirlərin il ərzində silsiləli şəkildə davam etdirilməsinin vacibliyi vurğulanıb.

Tədbirdə dosent Namiq Kərimov və Sevinc Abbasova mövzu ilə bağlı məruzə ilə çıxış ediblər. Onların məruzələrində müstəqil Azərbaycanın ilk Konstitusiyasında vətəndaşlara verilən hüquq və azadlıqlar, ölkənin siyasi-ərazi quruluşu, hakimiyyət qolları və onların funksiyaları geniş şəkildə izah olunub. Konstitusiyaya edilmiş əlavə və dəyişikliklərlə bağlı müxtəlif illərdə keçirilmiş referendumlara toxunan məruzəçilər bu dəyişikliklərin demokratik dəyərlərin gücləndirilməsi, siyasi azadlıqların artırılması və beynəlxalq təcrübəyə uyğunlaşdırılmasına xidmət etdiyini bildiriblər.

Çıxışlarda həmçinin İkinci Qarabağ müharibəsində əldə olunan tarixi Zəfər və 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilmiş lokal xarakterli antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunduğu, ölkə Konstitusiyasının hüquqi qüvvəsinin bütün ərazilərdə təmin edildiyi xüsusi qeyd olunub.

Daha sonra İngilis-Fransız dilləri fakültəsinin III kurs tələbələri Rzazadə Leyla və Şahmuradlı Selcan “Konstitusiya və Suverenlik” mövzusunda hazırladıqları çıxışlarla tədbiri davam etdiriblər. Onların məruzəsində Konstitusiyada əksini tapan qadın və uşaq hüquqları, gənclərin inkişafı və təhsil məsələləri hərtərəfli şəkildə təhlil olunub. Tələbələrin çıxışları tədbir iştirakçıları tərəfindən maraqla qarşılanıb.

# Suverenliyimiz əbədidir

**dəyirmi masa**

ADU-nun İngilis alman dilləri fakültəsinin nəzdində Mülki müdafiə və tibbi biliklərin əsasları kafedrasının müəllimləri Aygün Kərimova və Aytən Zeynalovanın birgə təşkil etdikləri “Müstəqillik və suverenlik ili”nə həsr olunmuş “Suverenliyimiz əbədidir” adlı dəyirmi masa keçirilib.

Tədbirdə rektor köməkçisi Anar Osmanlı, İngilis alman dilləri fakültəsinin dekanı Naibə Camalzadə, İngilis fransız dilləri fakültəsinin dekanı Vəfa Bənnayeva, kafedra müdiri Sevda Zamanova, kafedranın müəllimləri və hər iki fakültənin III kurs tələbələri iştirak ediblər.

Tədbir Vətən müharibəsində həlak olmuş şəhidlərin xatirəsini 1 dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan himninin səsləndirilməsi ilə başlayıb.

Sonra hər iki fakültənin tələbələrinin suverenlik və müstəqillik anlamlarını müxtəlif aspektlərdə geniş və hər tərəfli şəkildə hazırlanmış çıxışları ilə davam edib.

“Azərbaycan” şeiri və Zülfiyyə Xanbabayevanın ifasında “Qurban olum Azərbaycan” mahnısı səsləndirilib.

Sonda rektor məsləhətçisi Anar Osmanlı, dekan Vəfa Bənnayeva, kafedra müdiri Sevda Zamanova tələbələrin mövzu ətrafında hər tərəfli çıxışlarını təqdirə layiq hesab edərək, tədbirin təşkilatçılarına və tələbələrə öz minnətdarlıqlarını bildiriblər.

# Dünya alimləri Ulu Öndər Heydər Əliyevin işığında

## ADU-nun beynəlxalq konfransı

### *Azərbaycan Dillər Universitetinin rektor müşaviri Coşqun Dadaşovla İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cavid Zeynallının söhbətini təqdim edirik*

***Cavid Zeynallı:** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" adlı Beynəlxalq Konfrans uğurla başa çatdı. Universitetimizin rektoru, akademik Kamal Abdullanın təşəbbüsü və ideya müəllifliyi ilə artıq səkkizinci dəfə keçirilən konfrans həm çətin, həm də çox məsuliyyətli bir tədbir idi. Hesab edirəm ki, Azərbaycan Dillər Universitetinin rəhbərliyi və kollektivi bu çətin, məsuliyyətli işin öhdəsindən layiqincə gəldi. Ən önəmli məqamlardan biri ondan ibarət idi ki, konfransın panel müzakirələrində dünyanın müxtəlif nüfuzlu universitetlərindən olan 40-dan artıq tanınmış alim iştirak edirdi. Gəlin, bu barədə ətraflı danışaq.*



**Coşqun Dadaşov:** Təbii ki, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş və artıq Azərbaycan Dillər Universitetində ənənəyə çevrilmiş



VIII Beynəlxalq Elmi Konfransın keçirilməsi olduqca əlamətdar hadisə oldu. Bu konfrans, əlamətdar olması ilə yanaşı, eyni zamanda üzərimizə böyük məsuliyyət qoyurdu. Mənim fikrimcə, konfransı üç mərhələyə bölmək olar: konfransdan əvvəlki hazırlıq dövrü, konfransın keçirildiyi dövr və konfransdan sonrakı mərhələ.

Builki konfransın xüsusi çəkisi ondan ibarət idi ki, ilk dəfə olaraq xarici ölkələrdən gələn iştirakçıların sayı 40-dan çox idi. Qonaqların arasında nüfuzlu universitetlərin rektorları iştirak edirdi. Məsələn, Türkiyədən Ankara Universitetinin rektoru Necdet Ünüvar, Pakistanın Müasir Dillər Universitetinin rektoru general Şahid Mahmud Kayani, İtaliyanın Peruca Əcnəbilər Universitetinin rektoru, professor Valerio de Cesaris iştirak edirdilər.

Bizim üçün ən qürurverici məqamlardan biri ondan ibarət idi ki, bu insanların hər birinin gözündə Azərbaycana olan dərin məhəbbət və Ümummilli liderin irsinə olan böyük maraq aydın sezilirdi. Hər bir iştirakçının simasında Heydər Əliyev irsinə, onun irsinin araşdırılmasına və təqdim olunmasına olan ehtiramı görmək mümkün idi. Ulu öndər bizim xalqımız üçün bir simvol, bir arxetipdir və biz bu təsviri iştirakçıların münasibətində dəfələrlə müşahidə etdik.

Konfrans zamanı əldə etdiyimiz mühüm nailiyyətlər də diqqətəlayiqdir. Artıq hər kəsə məlumdur ki, Azərbaycan Dillər Universiteti beynəlxalq nüfuzunu gündən-günə artırır. Bu nüfuz yalnız ölkə daxilində deyil, eyni zamanda xarici ölkələrdəki tanınmış universitetlər tərəfindən də qəbul olunur. Bu proses, ölkə başçımızın həyata keçirdiyi təhsil siyasətinin mühüm tərkib hissəsidir.

Universitetimizin beynəlmiləlləşmə strategiyası çərçivəsində həyata keçirilən işlər - beynəlxalq test mərkəzlərinin, dil mərkəzlərinin yaradılması bizim üçün strateji hədəfdir. Universitetimizin rektoru akademik Kamal Abdullanın bizim üçün müəyyən etdiyi hədəflərin artıq bir neçəsinə çatmaqdayıq.

Bu konfrans çərçivəsində mühüm hadisələrdən biri də universitetdə iki yeni beynəlxalq dil mərkəzinin fəaliyyətə başlaması oldu. Konfransın ilk günü Azərbaycan Dillər Universiteti ilə Peruca Əcnəbilər Universiteti arasında əməkdaşlıq çərçivəsində İtalyan Dili Mərkəzinin nəzdində CELI imtahan mərkəzinin rəsmi açılışı baş tutdu. Peruca Əcnəbilər Universitetinin rektoru, professor Valerio de Cesarislə Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla arasında əməkdaşlıq haqqında müqavilə imzalandı. CELI imtahan mərkəzinin rəsmi açılışında İtaliyanın Azərbaycandakı səfiri Luka di Canfrançesko iştirak etdi. Həm universitetin professor-müəllim heyəti, həm də tələbələr üçün bu imtahan mərkəzinin açılması olduqca əhəmiyyətli hadisədir. Hətta bu imkanlardan ölkəmizin digər universitetlərinin tələbələri də faydalana biləcək.

Konfransın digər mühüm hadisəsi isə 7 may tarixində - konfransın son günü baş tutdu. Bu tarixdə Ankara Universiteti ilə birlikdə TÖMER - Türk dili öyrətim mərkəzinin Azərbaycan Dillər Universitetində fəaliyyətə başlaması reallaşdı. Ankara Universitetinin rektoru Necdet Ünüvarla Azərbaycan Dillər Universitetinin rektoru akademik Kamal Abdulla arasında əməkdaşlıq haqqında müqavilə imzalandı. Açılış mərasimində Türkiyə Respublikasının fövqəladə və səlahiyyətli səfiri Birol Akgün iştirak etdi. Ankara Universiteti, bildiyimiz kimi, regionun və dünyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biridir. Bu mərkəzlərin fəaliyyətə başlaması ulu öndərin əbədi irsini yaşadan konfransın nəticəsi olaraq bizi çox sevindirdi. Beləliklə, Azərbaycan Dillər Universiteti artıq rəsmi olaraq iki beynəlxalq dil mərkəzinin - CELI və TÖMER - sertifikatlarını təqdim etmək statusuna sahib oldu. Bu, təkcə bizim üçün deyil, həm də universitetimizi sevən hər kəs üçün böyük sevincdir.

***Cavid Zeynallı:** Sevindirici haldır ki, konfransa olan maraq ildən-ilə artır. Azərbaycan Dillər Universitetinin qonağı olan müxtəlif universitetlərin professorları ölkəmizdəki multikultural mühiti yüksək qiymətləndirirlər. Eyni zamanda, universitetimizin tələbələri haqqında da çox müsbət fikirlər səsləndirirlər. Xüsusilə qeyd etmək istəyirəm ki, universitetimizin qonağı olan müxtəlif ölkələrin diplomatları və səfirləri tələbələrimizin dil bacarıqlarını yüksək dəyərləndirirlər. Budəfəki konfransda iştirak edən müxtəlif universitetləri təmsil edən nümayəndələrə tələbələrimizin dil bilikləri ilə bağlı suallar ünvanladım və bizi sevindirən cavablar aldım. İstərdim ki, konfransın ideya müəllifi olan Kamal müəllimin bu təşəbbüsünün - azərbaycançılıq, azərbaycanşünaslıq və ümummilli liderin multikultural dünya, multikultural Azərbaycan istiqamətində atdığı addımların davamlılığı ilə bağlı fikirlərinizi bölüşəsiniz.*

**Coşqun Dadaşov:** Təəssüf hissi ilə qeyd etməliyik ki, qloballaşan dünyada bir sıra dövlətlər arasında münaqişələr və gərginliklər müşahidə olunmaqdadır. Belə bir vəziyyətdə Azərbaycanda sabitlik, sülh və əmin-amanlıq hökm sürür. Bu, bizim xalqın milli yaddaşından gələn dəyərlərə söykənir. Kamal müəllimin ideya kimi irəli sürdüyü Azərbaycan multikulturalizmi konsepsiyası, əslində, Azərbaycan xalqının genetik yaddaşında, arxetiplərində tarixən mövcud olan bir anlayışdır. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə multikulturalizmin əsas prinsipləri müəyyən edilib və bu gün Prezident İlham Əliyev bu siyasəti davam etdirərək multikulturalizmi dövlət siyasəti səviyyəsinə yüksəldib.

Bu gün müxtəlif dinlərə, millətlərə və irqlərə mənsub olan insanların - konfransa 40-dan artıq ölkədən gəlmiş iştirakçıların - dilindən Azərbaycan multikulturalizminin əzəməti və möhtəşəmliyi ilə bağlı dəyərləndirmələr eşidildi. Onlar bu dəyərləri hazırkı dünyadakı mənfi mənzərə ilə müqayisə edərək Azərbaycanın nümunəvi mövqeyini vurğuladılar.

Konfrans bölmələrində multikulturalizm və tolerantlıqla bağlı çox ciddi və məzmunlu müzakirələr aparıldı. Mən hesab edirəm ki, bu prinsiplər, yəni multikulturalizm və tolerantlıq, bu gün artıq məhz Azərbaycandan dünyaya yayılan bir dəyərlər sistemidir. Universitetimizin rektoru Kamal müəllimin bu sahədəki ideyası bizim üçün xüsusi əhəmiyyət kəsb edir.

Mən bir məsələyə xüsusi toxunmaq istərdim. Qeyd etdim ki, konfransın üç mərhələsi mövcuddur - konfransdan əvvəlki dövr, konfransın keçirildiyi dövr və konfransdan sonrakı dövr. Mən özüm də təşkilat komitəsinin üzvü kimi, konfransdan aylar öncə təqdim edilən materialların dəyərləndirilməsindən tutmuş tədbirin bu qədər möhtəşəm şəkildə keçirilməsinə qədər bütün prosesdə fəal iştirak etmişəm. Kamal müəllimin bu mərhələdə bizə verdiyi xüsusi tapşırıqlar və tövsiyələr bizim üçün istiqamətverici oldu. Konfrans müddətində əldə olunan nailiyyətlər barədə yəqin ki, artıq müxtəlif informasiya vasitələrindən məlumat əldə etmisiniz. Amma konfransdan sonrakı dövr - bu, ən vacib mərhələlərdən biridir. Mənə elə gəlir ki, konfransdan sonrakı dövrün real bəhrələrini biz yalnız bir neçə il sonra daha aydın şəkildə görə biləcəyik.

Azərbaycana gəlmiş, konfransda iştirak etmiş professor və tədqiqatçılar artıq Azərbaycan multikulturalizminin əsaslarını dərindən qavramış insanlara çevriliblər. Onlar Azərbaycan siyasətinin mahiyyətini anlayırlar, Azərbaycan həqiqətləri ilə yaxından tanış olublar. Onlar artıq Azərbaycan tələbəsinin azad düşüncəsini, intellektual səviyyəsini, elmi potensialını tanıyırlar.

Bu gün həmin insanlar - tədqiqatçılar və professorlar - öz ölkələrində və beynəlxalq platformalarda Azərbaycanın tədqiqat potensialı barədə danışıqlar aparacaq, konfransda əldə etdikləri təəssüratları və bilgiləri elmi məqalələrində, çıxışlarında əks etdirəcəklər. Mən inanıram ki, onilliklər ərzində biz bu konfransın uzunmüddətli nəticələrini aydın şəkildə müşahidə edəcəyik.

***Cavid Zeynallı: Konfrans çərçivəsində müxtəlif panel müzakirələr təşkil olundu və bu müzakirələr ölkə və dünya miqyasında aktual hesab edilən problemlərə həsr olunmuşdu. Mən özüm də bir neçə paneldə iştirak etdim. Azərbaycan qanunvericiliyi, Azərbaycan Konstitusiyası, multikulturalizm məsələləri, ədəbiyyatşünaslıq, dil və linqvistika sahəsindəki müxtəlif problemlərlə bağlı müzakirələr aparıldı. Bu mənzərə onu deməyə əsas verir ki, konfransda iştirak edən və tezislər göndərən, özünü bu konfransın bir parçası kimi görən alimlər, ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş bu beynəlxalq tədbirin dünya elmi məkanındakı yerini yüksək qiymətləndirirlər. Bu isə o deməkdir ki, Azərbaycan Dillər Universitetinin artıq səkkizinci dəfə təşkil etdiyi bu konfransı gələcək illərdə də davamlı şəkildə keçiriləcək.***

**Coşqun Dadaşov:** Bu məqamda bir əlavə etmək istərdim. Siz panel iclasları qeyd etdiniz. Bu məsələdə də universitetimizin rektoru, akademik Kamal Abdullanın xüsusi yanaşması özünü göstərdi. Kamal müəllimin ideya müəllifi olduğu konfransın əsas prinsiplərindən biri ondan ibarət idi ki, hər bir elmi paneldə moderator qismində mütləq şəkildə bir yerli və bir xarici nümayəndə iştirak etməli idi. Bu prinsip panel müzakirələrinin elmi nəticəliliyini artırmaq baxımından çox faydalı oldu. Konfransın bağlanış mərasimində moderatorların hesabatlarını dinləyərkən bir daha əmin olduq ki, keçirilən panel müzakirələrində çox ciddi elmi nəticələr əldə olunmuşdur. Ədəbiyyat və dil sahəsində aparılan paralel təhlillər, Azərbaycan Konstitusiyasının suverenlik prinsiplərinin digər ölkələrin konstitusiya sistemləri ilə müqayisəsi, qloballaşan dünyada dillərarası və mədəniyyətlərarası dialoqun tarixi aspektləri müzakirə olundu.

Süni intellektin sürətlə inkişaf etdiyi bu dövrdə tərcümə məsələləri, dillərin aktuallığı və rolunun dəyişməsi ilə bağlı ciddi elmi debatlar keçirildi. Müasir beynəlxalq münasibətlər və multikulturalizm mövzularında nəzəri və praktiki biliklərə malik olan alimlər dəyərli konseptual yanaşmalar irəli sürdülər. Multikultural dəyərlərin formalaşmasında təhsilin rolu məsələsi də xüsusi diqqət mərkəzində idi. Müasir təhsil modelləri və onların içərisində multikulturalizm dəyərlərinin inteqrasiyası ətrafında geniş müzakirələr aparıldı.

Səfərlərimiz zamanı qonaqlara əyani şəkildə nümayiş etdirdik ki, Azərbaycanda müxtəlif etnik qruplar öz ana dillərində təhsil almaq hüququna malikdirlər və bu hüquq təmin olunur. Xarici qonaqlardan bir neçəsi bu faktlara heyrətlə və təəccüblə yanaşdı, onların gözlərindəki təəccüb və marağı biz də müşahidə etdik. Bu faktları onlara yerində göstərmək və Azərbaycan reallığını canlı şəkildə təqdim etmək bizim üçün həm qürurverici, həm də böyük məsuliyyət idi.

***Cavid Zeynallı: Beynəlxalq Konfransdan bir neçə gün əvvəl Ulu Öndərin xatirəsinə həsr olunmuş Tələbə-Şagird Konfransı təşkil olundu. Bu konfrans bizim tələbə və şagirdlərimiz üçün gələcəkdə dünyanın nüfuzlu ölkələrində keçiriləcək beynəlxalq tədbirlərə bir hazırlıq mərhələsi, ciddi bir baza rolunu oynayır. Fərqli məktəblərdən gələn şagirdlərin gözlərində sevinc, həvəs, tezliklə tələbə olmaq, elmlə məşğul olmaq istəyi hiss olunurdu. Azərbaycan Dillər Universiteti kollektivinin bu istiqamətdəki zəhməti və əməyi həmin o uşaqların baxışlarında, sevincində əks olunurdu. Bu isə o deməkdir ki, görülən işlər boşa getməyib və gələcəkdə onların hər birinin uğurunda özünü göstərəcəkdir.***

**Coşqun Dadaşov:** Tamamilə haqlısınız. Bu layihə də məhz universitetimizin rektoru, akademik Kamal Abdullanın ideya müəllifi olduğu təşəbbüslərdən biridir. Tələbə-Şagird Konfransı ilk dəfə məhz Azərbaycan Dillər Universitetində keçirildi. Kamal müəllim belə bir konsepsiya irəli sürdü ki, orta məktəb şagirdlərinə universitet tələbələrinin elmi rəhbərlik etməsi elmi vərdişlərin həm şagirdlərdə, həm də tələbələrdə formalaşmasına zəmin yaradır.




Bunu da qeyd etmək yerinə düşər ki, universitetimizin strateji planında, eləcə də ümumi təhsil konsepsiyasında ali məktəb olaraq elmi tədqiqatlara üstünlük veririk. Elmə marağın artırılması bizim əsas strateji xəttimizdir. Kamal müəllimin bu ideyası - orta məktəbdən başlayaraq elmi tədqiqat bacarıqlarının formalaşdırılması - bu istiqamətdə atılan önəmli addımlardan biridir.

Azərbaycan Dillər Universiteti artıq ikinci ildir ki, ali məktəb tələbələrinin ümumtəhsil məktəbi şagirdlərinə elmi rəhbərlik etməsini uğurla reallaşdırır. Layihənin digər bir orijinallığı isə ondan ibarətdir ki, universitet tələbələri artıq bu ildən Azərbaycanın bütün regionlarına əhatə edən pedaqoji təcrübəyə göndəriliblər. Bu il ilk dəfə olaraq, tələbələrimiz ölkə daxilində bütün bölgələrdə təcrübələrini uğurla davam etdirirlər. Bu, Tələbə-Şagird Konfransında da geniş miqyasda özünü göstərdi. Burada iştirak edən şagirdlər təkcə Bakı və ətraf ərazilərdən deyil, cənubdan, şərqdən, qərbdən - ölkənin bütün bölgələrindən gəlmişdilər.

Yaddaşımda qalan çox mühüm bir məqamı qeyd etmək istərdim. Bir neçə il əvvəl Aprel döyüşləri nəticəsində ölkəmizin Cocuq Mərcanlı istiqamətində qazandığı qələbə ilə bu yaşayış məntəqəsi düşmən işğalından azad olundu və orada məktəb fəaliyyətə başladı. Kamal müəllim universitet kollektivi ilə bu məsələni müzakirəyə çıxararaq bildirdi ki, biz tələbələrimizi məhz Cocuq Mərcanlıya təcrübəyə göndərmək istəyirik. Etiraf edim ki, ilk mərhələdə bu qərarla bağlı müəyyən tərəddüdlər var idi. Düşünürdük ki, tələbələr və ya onların valideynləri bu ideyaya ehtiyatla yanaşa bilərlər. Axı ərazi o vaxtlar hələ tam təhlükəsiz deyildi. Amma Kamal müəllimin bu ideyaya olan inamı və dəstəyi nəticəsində biz gözləmədiyimiz qədər yüksək bir reaksiyayla qarşılaşdıq. Cocuq Mərcanlıda ayrılmış 10 yerə demək olar ki, bütün tələbələr müraciət etdi. Bu, əslində Azərbaycan gəncliyinin cəsarətini, vətənpərvərliyini və məsuliyyət hissini ortaya qoydu.

Həmin gün Kamal müəllimin zalda səsləndirdiyi sözlər yaddaşımıza həkk olundu. Dedi ki, bu gün Cocuq Mərcanlıda yerlərimiz məhduddur. 10 nəfər iştirak edə biləcək. Amma əmin olun ki, ölkə başçımızın rəhbərliyi ilə torpaqlarımız tezliklə azad olunacaq və mən rektor kimi sizə söz verirəm ki, gələcəkdə Şuşada, Laçında, Kəlbəcərdə, Cəbrayılda da sizə təcrübə keçmək üçün şərait yaradılacaq. O an Kamal müəllimin gözlərində həm böyük sevinc, həm də dərin qürur və kədər vardı. Bu gün isə bu sözlər artıq reallıqdır. Ölkə başçımızın apardığı uğurlu siyasət, şəhid və qazilərimizin fədakarlığı, Azərbaycan gəncliyinin cəsarəti sayəsində torpaqlarımız işğaldan azad edilib. Bu gün Azərbaycan Dillər Universitetinin tələbələri artıq Qarabağda, azad edilmiş ərazilərdə pedaqoji və istehsalat təcrübəsi keçirlər. İnanıram ki, tezliklə bu təcrübələr Qərbi Azərbaycanda da həyata keçiriləcək.

***Cavid Zeynallı: Hesab edirəm ki, bu cür tədbirlərin təşkili ali təhsil müəssisələrinin beynəlxalq imicinə və nüfuzuna birbaşa təsir göstərir. Təsadüfi deyil ki, son üç ildə Azərbaycan Dillər Universiteti müxtəlif reytinq təşkilatları, o cümlədən, QS reytinq sistemi üzrə əhəmiyyətli mövqelər əldə edib. Bu isə onu deməyə əsas verir ki, tədrisə və elmə yönəlmiş beynəlxalq konfranslar universitetin qlobal səviyyədə tanınmasına xidmət edir.***

***Eyni zamanda, bu cür tədbirlər ADU-nun beynəlxalq əlaqələrinin genişlənməsinə zəmin yaradır. Universitetin hazırkı xarici əlaqələri, yeni yaradılan mərkəzlər, ikili diplom proqramları və beynəlxalq tədris layihələri göstərir ki, Azərbaycan Dillər Universitetinin elmi və tədris ideyalarına dünyada ciddi ehtiyac var. Hesab edirəm ki, bu istiqamətdə atılan addımlar universitetimizi gələcəkdə dünyanın ən nüfuzlu ali təhsil müəssisələri ilə eyni səviyyədə müxtəlif layihələrdə və proqramlarda təmsil edə bilər.***

**Coşqun Dadaşov:** Tamamilə doğrudur. Bu istiqamət bizim beynəlmiləlləşmə konsepsiyamızın əsas komponentidir. Universitetimizin strateji inkişaf planında beynəlmiləlləşmə prioritet hədəf kimi müəyyən olunub. Bu strategiya çərçivəsində görülən işlər artıq öz bəhrəsini verməkdədir. Qürur hissi ilə qeyd edə bilərəm ki, ADU QS beynəlxalq reytinq sistemində 100 pillə irəliləyərək, müasir dillər sahəsində dünyada 200-250-ci yerləri bölüşməkdədir. Bu uğur tərəfdaş universitetlərimiz tərəfindən də yüksək qiymətləndirilmiş və ünvanımıza çoxsaylı təbrik məktubları göndərilmişdir.

Lakin fəaliyyətimiz bununla yekunlaşmır. Universitet rəhbərliyinin təşəbbüsü ilə yeni istiqamətlər üzrə də mühüm layihələr həyata keçirilir. Məsələn, yaxın zamanda Macarıstanın ən qədim və nüfuzlu ali məktəblərindən biri olan ELTE Universitetində Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi açılacaq. Bu mərkəz Azərbaycançılıq ideologiyasının və müasir Azərbaycanın obrazının beynəlxalq aləmdə tanıdılması üçün mühüm platforma olacaq.

Bu, ADU-nun açdığı səkkizinci mərkəz olacaq. Eləcə də, Özbəkistan Dövlət Cahan Dillər Universitetində də yaxın zamanda Azərbaycan Dili və Mədəniyyəti Mərkəzi fəaliyyətə başlayacaq. Bu mərkəzlərin yaradılması regionda və dünyada Azərbaycanla marağın artmasına təkan verir. Bundan başqa, ADU-nun təşəbbüsü ilə Orta Asiyaşünaslıq ixtisasının açılması üzərində də ciddi iş aparılır. Yaxın zamanlarda Özbəkistanın dörd universiteti ilə əməkdaşlıq memorandumları imzalanacaq və ikili diplom proqramları həyata keçiriləcəkdir.

Azərbaycan Dillər Universiteti hal-hazırda İngiltərə, ABŞ və Çin də daxil olmaqla bir çox ölkənin aparıcı ali məktəbləri ilə ikili diplom layihələri və əməkdaşlıq müqavilələri çərçivəsində fəal əməkdaşlıq edir. Bu müqavilələr yalnız kağız üzərində qalmır, onların əksəriyyəti praktik fəaliyyətlə müşayiət olunur. Universitetin tələbə və müəllim heyəti bu layihələrdən aktiv şəkildə faydalanır.

Əlavə olaraq, universitetimiz müasir dünyada danışılmayan, yəni "ölü dillər" adlandırılan dillərin tədrisinə də xüsusi önəm verir. Artıq universitetimizdə latın dili tədris olunur. Bundan başqa, sanskrit dili də elmi tədqiqat məqsədilə öyrənilir. Bu istiqamətdə xarici mütəxəssislər - o cümlədən İndoneziya və digər ölkələrdən dəvət olunmuş müəllimlər dərs prosesinə cəlb olunmuşdur. Sanskrit dili, öz aktuallığını müəyyən dərəcədə itirsə də, elmi tədqiqat sahəsində fəaliyyət göstərən alimlər üçün əvəzolunmaz alət olaraq qalır. Əminik ki, bu dillərin tədrisi nəticəsində ADU dünya elmi məkanında da öz mövqeyini daha da gücləndirəcəkdir. Son olaraq, söhbətimizi ADU-nun rektoru akademik Kamal Abdullanın sözləri ilə yekunlaşdırmaq istəyirəm: "Konfrans başa çatdı, yaşasın konfrans".

# Macarıstanda Azərbaycan dili və mədəniyyəti mərkəzi açılıb

Mayın 19-da Macarıstanın Elte Universitetində Azərbaycan dili və mədəniyyəti mərkəzinin açılışı olub.

Mərkəzin açılışında Elte Universitetinin rektoru Laszlo Borhy, Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə, Macarıstanın Azərbaycandakı səfiri Tamaş Torma, ADU-nun Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektoru, millət vəkili Tamam Cəfərova, ADU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova, Macarıstandakı Azərbaycan evinin rəhbəri İbrahim Səfərli çıxış ediblər.

Qeyd olunub ki, Azərbaycan dili və mədəniyyəti mərkəzinin açılışı iki ölkə arasında elmi, mədəni, siyasi, təhsil sahəsində tərəfdaşlıq münasibətlərinə öz müsbət töhfəsini verəcəkdir.

Elte Universitetinin rektoru Laszlo Borhy ADU ilə əlaqələrin inkişafında yeni açılan Azərbaycan dili və mədəniyyəti mərkəzinin xüsusi rola malik olacağını vurğulayıb. Bildirib ki, ADU-da fəaliyyət göstərən Macar dili və mədəniyyəti mərkəzi ilə qarşılıqlı əlaqələrin qurulması fonunda yeni layihələr, müəllim-tələbə mübadiləsi proqramları həyata keçiriləcək.



ADU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova ADU-nun rektoru, akademik Kamal Abdullanın salamlarını çatdırıb, mərkəzin açılışı ilə bağlı ünvanlanan təbrik nitqini oxuyub. O, qeyd edib ki, Azərbaycan Dillər Universiteti beynəlxalq əlaqələrini daha da genişləndirir və bu istiqamətdə xaricdə açılan mərkəzlərin xüsusi yeri var: "Bu mərkəzin açılışı əlamətdar hadisədir. Burada Azərbaycan mədəniyyətinin və dilinin öyrənilməsi, ciddi elmi-tədqiqat işlərinin aparılması ilə bağlı böyük perspektiv var".

Jalə Qəribova mərkəzin açılışında göstərdiyi böyük dəstəyə görə Elte Universitetinin Türk dilləri departamentinin müdiri professor Benedek Periyə təşəkkürünü bildirib.

Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor, Milli Məclisin Azərbaycan-Macarıstan dostluq qrupunun üzvü Tamam Cəfərova iki ölkə arasında qarşılıqlı əlaqələrin yüksələn xəttlə inkişafının perspektivlərindən söz açıb.

Görüşdə Azərbaycan və Macarıstan arasında dostluq, qarşılıqlı hörmət və sıx əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq əlaqələrinin mövcudluğu qeyd olunaraq, ölkələrimizin siyasi, iqtisadi, təhsil və digər sahələrdə fəal əməkdaşlıq etdikləri diqqətə çatdırılıb: "Parlamentlərarası münasibətlər iki ölkə arasındakı inkişafa böyük töhfə verib. Yeni mərkəzin açılması iki ölkə arasında olan sıx tərəfdaşlıq və dostluq münasibətlərinə öz müsbət təsirini göstərəcəkdir".

Azərbaycanın Macarıstandakı səfiri Tahir Tağızadə Azərbaycan dili və mədəniyyəti mərkəzinin əhəmiyyətindən danışarkən qeyd edib ki, Azərbaycan Dillər Universiteti ilə Elte Universiteti arasında tərəfdaşlıq münasibətlərinin inkişafı iki ölkə arasında mövcud olan elmi, mədəni əlaqələrin inkişafına təkan verəcək. Tahir Tağızadə Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin TÜRKPA-nın spikerləri ilə görüşündəki çıxışından sitat gətirib: "Cənab Prezident bildirdi ki, Macarıstan Azərbaycanın Avropa İttifaqındakı bir nömrəli strateji tərəfdaşıdır. Möhtərəm prezidentimiz İlham Əliyev bildirib ki, bizim ailəmiz Türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur. Məhz bu mənada mərkəzin açılması siyasi amil kimi xüsusi dayaq nöqtəsidir".

ADU-nun yüksək elmi potensialından danışan səfir deyib ki, ADU-da multikultural ab-hava kifayət qədər münbitdir. Bu da təhsil müəssisəsində bir sıra xarici ölkələrin dil və mədəniyyət mərkəzlərinin fəaliyyəti üçün əlverişli imkanlar yaradır.

ADU-nun rektoru, akademik Kamal Abdullanın təşəbbüsü ilə xarici ölkə universitetlərində yaradılan Azərbaycan dili və mədəniyyəti mərkəzlərinin fəaliyyəti ölkələr arasında olan münasibətlərin inkişafına öz töhfəsini verməkdədir.

Tədbirdə ölkələr arasında qarşılıqlı elmi əməkdaşlıqla bağlı irəli sürülən dil və mədəniyyət mərkəzlərinin fəaliyyəti ideyasının orijinallığı xüsusi olaraq vurğulanıb.

Azərbaycanda təhsil almış ilk Macar tələbə, professor Maria Kenessey Macarıstanda Azərbaycan dili və mədəniyyəti mərkəzinin açılmasını son dərəcə sevindirici bir hadisə olduğunu söyləyib.

Mərkəzin açılması münasibəti ilə təbriklərini çatdıran professor Maria Kenessey gənclərə təhsil həyatında uğurlar arzu edib.

# ADU-da Beynəlxalq Çin Dili Günü



Aprelin 29-da Azərbaycan Dillər Universiteti (ADU) Beynəlxalq Çin Dili Günü münasibətilə Çin Xalq Respublikasının müxtəlif ali təhsil müəssisələrini təmsil edən nümayəndə heyətini qəbul edib. Səfər iki ölkə arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlığın inkişafına həsr olunub.

Tədbirdən əvvəl ADU-nun rəhbərliyi - prorektorlar Jalə Qəribova, Şəfəq Şahməmmədova və Həmidə Əliyeva ilə nümayəndə heyəti arasında görüş keçirib, qarşılıqlı maraq doğuran mövzular ətrafında geniş fikir mübadiləsi aparılıb. Görüşdə iki ölkə arasında təhsil və mədəniyyət sahəsində əməkdaşlıq imkanları ətraflı müzakirə olunub.

Çin tərəfini Hebei İqtisadiyyat və Biznes Universitetinin prorektoru Du Hongmei, Beynəlxalq Mübadilə Mərkəzinin direktoru Shang Livei, İncəsənət Məktəbinin Partiya Təşkilatının katibi Liu Jingwang və digər ali təhsil müəssisələrinin nümayəndələri təmsil edib. Heyətin tərkibinə universitet rəhbərliyi, fakültə dekanları, müəllimlər, musiqiçilər və tələbələr daxil olub. Səfər çərçivəsində ADU tələbələri ilə birgə interaktiv tədbirlər, sənət və mədəniyyət proqramları təşkil edilib.

Hebei İqtisadiyyat və Biznes Universitetinin nümayəndəsi universitetin beynəlxalq əməkdaşlığa verdiyi əhəmiyyəti qeyd edib, son illərdə həyata keçirilən inkişaf strategiyalarından və Konfutsi İnstitutları vasitəsilə qurulan mədəniyyətlərarası dialoqun rolundan bəhs edib. O, Çində Azərbaycan dili və mədəniyyətinin tanıdılması istiqamətində yeni əməkdaşlıq imkanlarının yaradıldığını vurğulayıb.

Görüş zamanı universitetlər arasında iki diplomlu proqramların təşkili, kurikulumların uyğunlaşdırılması, birgə elmi jurnalların nəşri və tələbələrin elmi rəhbərlik çərçivəsində dəstəklənməsi kimi təşəbbüslər irəli sürülüb. Tərəflər bu istiqamətdə ilkin addım olaraq Anlaşma Memorandumunun imzalanmasını planlaşdırıb.

Görüş qarşılıqlı anlayış və əməkdaşlıq ruhunda keçib. Hər iki tərəf təhsil, elm və mədəniyyət sahələrində davamlı əməkdaşlığa açıq olduqlarını bildirib. Sonda tərəflər təşəkkürlərini bildirərək, belə təşəbbüslərin iki ölkə arasında dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə xidmət etdiyini qeyd ediblər.

Danışıqlardan sonra ADU-nun akt zalında rəsmi tədbir keçirilib. Tədbir Çin Xalq Respublikasının Təhsil Nazirliyi, Çin Xalq Respublikasının Azərbaycandakı Səfirliyi və ADU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun birgə əməkdaşlığı ilə təşkil olunub.

Tədbirdə hər iki xalqın milli musiqiləri və rəqsləri təqdim olunub, mədəni dəyərlər nümayiş etdirilib. Sonda xoş arzular səsləndirilib, xatirə şəkilləri çəkilib və tədbir rəsmi şəkildə başa çatıb.

# Yaponiya: gözəllik dünyası

*tədbir*

Mayın 2-də Azərbaycan Dillər Universitetində Regionşünaslıq və Beynəlxalq Münasibətlər fakültəsinin nəzdində fəaliyyət göstərən Şərq ölkələri üzrə Regionşünaslıq kafedrasının təşkilatçılığı ilə "Yaponiya: gözəllik dünyası" adlı tədbir keçirilib. Tədbir Yaponiyanın mədəniyyəti və incəsənətinin təbliğinə həsr olunub.

Tədbirdə Şərq ölkələri üzrə Regionşünaslıq kafedrasının müəllimləri Şəfəq Mustafayeva, Nailə Məmmədova və Aysel Kərimovanın rəhbərliyi ilə Yaponşünaslıq ixtisasında təhsil alan tələbələr fəal iştirak ediblər.

Kafedranın müdiri, k.e.d., dosent Nigar Əfəndiyeva tədbirin açılış nitqində Yapon mədəniyyətinin zəngin və qədim ənənələrindən, eləcə də bu ixtisasa olan marağın artmasından söz açıb.

Tədbir çərçivəsində tələbələr Yaponiyanın dövlət himnini səsləndirib, milli rəqs nümunəsini nümayiş etdiriblər. Qədim yapon sənət növləri - ikebana, oriqami və kiriqami haqqında məlumatlar verilib və bu sənət növləri yerindəcə əyani şəkildə təqdim olunub.

Bundan əlavə, Yapon mətbəxinin məşhur təamları olan suşi və onigiri tədbir iştirakçıları qarşısında hazırlanıb. Tədbir uzun əsrlik ənənəyə malik olan Yapon çay mərasiminin tələbələr tərəfindən nümayişi ilə yekunlaşıb.

# ADU-nun Pakistan nümayəndəliyi forumda Azərbaycan dilini təbliğ edib

Mayın 6-da Azərbaycan Dillər Universitetinin (ADU) Pakistandakı Azərbaycan dil və mədəniyyət mərkəzi NUML-ın Dillər fakültəsinin Tərcümə şöbəsi ilə "Interpreting the World: Unlocking Language and Culture "(Dünyanın şərhi: dil və mədəniyyətin açılışı) adlı forumun təşkilində yaxından iştirak edib.

Forumda 50-yə yaxın müəllim və tələbə kollektivi iştirak edib. Forumda xüsusi qonaq qismində iştirak edən ADM mərkəzinin rəhbəri Aynur Salmanova Azərbaycan dilinin tarixindən bəhs edərək, ana dilimizin tarixin müxtəlif dönəmlərində təzyiqlərə məruz qaldığını, işlənmə ərazisinin məhdudlaşdırıldığını qeyd edib.

Aynur Salmanova hər bir xalqın tarixinin, mədəniyyətinin məhz həmin dildə əks olduğunu vurğulayıb. Dilin xalqın mədəniyyətinə, milli kimliyinin formalaşmasında oynadığı danılmaz rolu vurğulayıb. Eyni zamanda, Türk , Urdu və Azərbaycan dilləri arasında qarşılaşdırma aparıb, deyimlər, atalar sözləri, salamlama, müraciət formalarından misal gətirərək Azərbaycan mədəniyyətinin təməlini təşkil edən sosial normalar- böyüyə hörmət, saygı, etik qaydalar, qonaqpərvərlik kimi xüsusiyyətlərinin Azərbaycan dilindəki təzahürünü vurğulayıb. O, Şah İsmayıl Xətayinin hakimiyyəti dövründə Azərbaycan dilinin dövlət dili olmasını, Azərbaycan Xalq Cumhuriyyəti illərində dilimizin inkişafının daim diqqət mərkəzində olduğunu xatırladıb. Ötən əsrin 90-cı illərindən başlayaraq Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan dilinin inkişafı, saflığının qorunması üçün göstərdiyi böyük qayğıdan danışıb.

# “Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq”, “Qeyri-səlis məntiq və nitq-dil” kitablarının təqdimatı



Aprelin 24-də Azərbaycan Yazıçılar Birliyində (AYB) Azərbaycan Dillər Universitetinin rektoru, akademik, Xalq yazıçısı Kamal Abdulla və AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin müəllifi olduqları “Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq” və “Qeyri-səlis məntiq və nitq-dil” kitablarının təqdimatı olub.

Azərbaycan Yazıçılar Birliyinin katibi, “525-ci qəzet”in baş redaktoru Rəşad Məcid giriş sözü ilə tədbiri açıq elan edib. Qeyd olunub ki, kitabın müəllifləri dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadənin məşhur qeyri-səlis məntiq nəzəriyyəsinin dərinliklərinə baş vuraraq, bu nəzəriyyəni humanitar elm sahələrinə uğurla tətbiq etməyi bacarıblar.

Hər iki müəllifin elmi yaradıcılığının zirvəsi olan bu unikal əsər Azərbaycan dilçiliyində məntiq və dil arasındakı əlaqələrin təhlilində yeni istiqamətlərə yol açır. Kitablar müasir dilçilik və məntiq sahələrində açdığı yeni üfüqlərlə qeyri-səlis məntiqin sosial elmlərə geniş şəkildə tətbiq olunmasının vacibliyini ön plana çıxarır. Kitabların Azərbaycanın elm tarixində bir çox intellektual başlanğıcların mənbəyi ola biləcəyi diqqətə çatdırılıb.

Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar qonaqları salamlayıb, onları görməkdən məmnun olduğunu bildirib. Qeyd edilib ki, Xalq yazıçısı Kamal Abdulla və AMEA-nın müxbir üzvü, professor Rafiq Əliyevin müəllifi olduqları “Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq” və “Qeyri-səlis məntiq və nitq-dil” kitabları təkcə Azərbaycan ədəbiyyatı üçün deyil, həmçinin məntiq elmi üçün də unikal hadisədir.

Xalq yazıçısı Anar çıxışında vurğulayıb ki, Lütfi Zadənin məşhur nəzəriyyəsindən bəhrələnən Kamal Abdulla və Rafiq Əliyev yeni nəşrdə qeyri-səlis məntiqin ədəbiyyatda, dilçilikdə, folklorda və nitqdə necə təzahür etdiyini, dilin özünəməxsus xüsusiyyətlərini izah etməyə çalışıblar. Hər iki kitabın elmi əhəmiyyəti yalnız bu nəzəriyyənin tətbiqi ilə məhdudlaşmır, eyni zamanda, yeni geniş tədqiqat sahələrini işıqlandırır, dilçilik və məntiqi sintez edən yeni üfüqlər formalaşdırır.

Tanınmış filosof-alim, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə kitablar haqqında fikrini bölüşüb. Hər iki kitab həm dilçilik elminin, həm də fəlsəfə elminin qarşısında yeni üfüqlər açır. Bu da öz növbəsində yeni tədqiqat işlərinin aparılması üçün mühüm amillərdən biri hesab olunur. Bu fundamental tədqiqat L.Zadə tərəfindən təməli qoyulan qeyri-səlis məntiqin gələcəkdə dilçilik və digər sosial elmlərdə daha geniş tətbiq olunacağına işarədir.

Müəlliflərin ərsəyə gətirdikləri kitabların sosial elmlərdəki potensialını daha dərindən anlamaq üçün mükəmməl platforma təqdim etməsi önə çəkilib.

Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidenti, professor Çingiz Hüseynzadə müəllifləri ərsəyə gətirdikləri unikal kitablar münasibətilə təbrik edib, onlara yeni yaradıcılıq uğurları arzu edib.

Söylənilib ki, “Kitabi-Dədə Qorqud” və qeyri-səlis məntiq” və “Qeyri-səlis məntiq və nitq-dil” kitabları elmi ictimaiyyət və ziyalılar tərəfindən böyük maraqla qarşılanıb.

Akademik Əli Abbasov çıxışında kitabların həm ədəbiyyatşünaslar, həm də informasiya nəzəriyyəçiləri üçün faydalı və maraqlı olduğunu söyləyib. Azərbaycan elm tarixində qeyri-səlis məntiq prinsipləri xalq yaradıcılığına, dastana ilk dəfə tətbiq edilməklə diqqət çəkib.

Dastanın mətni göstərir ki, qeyri-səlis məntiqin aparıcı ideoloji prinsipi olan seçim imkanı və demokratik yanaşım tərzi, başqa sözlə desək, tolerantlıq xalqımıza qədim zamanlardan bəri xas olan əbədi bir dəyərdir. Əcdadımız demokratik tərzdə düşünməyi məhz qeyri-səlis məntiq prinsiplərindən yararlanaraq öyrənmişlər. Onların bu prinsiplərdən bəhrələnməyi dünyagörüşlərindəki genişliyə olan meyil, məsələnin dərinliklərinə, incəliklərinə canatma marağı sayəsində mümkün olmuşdur.

Daha sonra çıxış edənlər ədəbiyyatşünas, tərcüməçi Cəlil Nağıyev, AYB-nin katibi şair-tərcüməçi Səlim Babullaoğlu, Azərbaycan Neft və Sənaye Universitetinin prorektoru professor Lətafət Qardaşova, AMEA Dilçilik İnstitutunun direktoru, professor Nadir Məmmədli, AMEA-nın Folklor İnstitutunun direktoru, dosent Hikmət Quliyev, akademik Muxtar İmanov, professor Qorxmaz İmanov və əməkdar jurnalist Tahir Aydınoğlu kitablar haqqında düşüncələrini bölüşüblər.

Qeyd olunub ki, müəlliflər kitabda qeyri-səlis məntiqi dil və nitqə tətbiq edərək, müxtəlif fərqli yanaşmaları irəli sürərək intellektual bir araşdırma ortaya qoyublar.

Sonda akademik Kamal Abdulla və professor Rafiq Əliyev kitabların yazılma prosesi haqqında danışıblar. Bildirilib ki, dünya şöhrətli azərbaycanlı alim Lütfi Zadənin məşhur qeyri-səlis məntiq nəzəriyyəsi “Kitabi-Dədə Qorqud” dastanının boylarına tətbiq edilməklə, diqqətəlayiq nəticələr əldə edilib.

“Kitabi-Dədə Qorqud” və qeyri-səlis məntiq” kitabı Azərbaycan (üç dəfə), Almaniya və Türkiyədə çap olunaraq, oxucular tərəfindən rəğbətlə qarşılanıb.

“Qeyri-səlis məntiq və nitq-dil” kitabının yazılma məramından bəhs edən Kamal Abdulla qeyd edib ki, qeyri-səlis məntiqin dil-nitq müstəvisində özünü göstərməsi indiyə qədər hərtərəfli şəkildə öyrənilməmişdir. Mövzunun indiyə qədər sistemli öyrənilməməsi isə onun bu günümüz üçün kifayət dərəcədə perspektivli və dərin olmasından xəbər verir. Qeyri-səlis məntiq nəzəriyyəsinin dilin özünəməxsus çoxmənalılıq və qeyri-xətti xüsusiyyətləri ilə uzlaşdırılması müasir dilçilik elmi üçün yeni üfüqlər açır: “Biz bu kitabda qeyri-səlis məntiq nəzəriyyəsini dilə tətbiqi ilə onun qeyri-xətti məqamlarını, çoxmənalılıq xüsusiyyətlərini əhatəli şəkildə izah etməyə çalışmışıq. Bu kitab sosial elmlərdə yeni bir dövr açmaq potensialına malikdir”.

# “Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru” kitabının fransız və urdu dillərində tərcümələri



Aprelin 30-da Azərbaycan Dillər Universitetində (ADU) “Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru” kitabının fransız və urdu dillərində tərcümələrinin təqdimatı keçirilib.

ADU-nun rektoru, akademik Kamal Abdulla tədbir iştirakçılarını salamlayıb, tədbirin önəmindən danışıb. Qeyd olunub ki, “Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru” adlı kitabın fransız və urdu dillərinə tərcüməsi mühüm əhəmiyyətə malikdir:

“Bu gün biz çox faydalı və son dərəcə ciddi bir kitabın tərcüməsinin təqdimatına toplaşmışıq. “Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru” kitabı Zəfər təntənəsinin, onun əsas ilhamverici qüvvəsinin əks olunduğu möhtəşəm bir kitabdır. Bu kitabı çapa Bakı Şəhər İcra Hakimiyyəti hazırlayıb. Buna görə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizova və əməyi keçən bütün insanlara təşəkkürümü bildirirəm.

Kitabın fransız və urdu dillərinə tərcümə olunması böyük məna daşıyır. Bildiyiniz kimi bundan əvvəl də bir neçə dilə tərcümə olunan kitabın əks-sədası artıq dünyanın bir sıra ölkələrindən eşidilməkdədir. Nəhayət ki, biz öz həqiqətlərimizi dünyanın hər yerinə çatdıra bilirik. Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin müdrik siyasəti nəticəsində bu gün Azərbaycan həqiqətlərini bütün dünya qəbul edir”.

Bakı Şəhər İcra Hakimiyyətinin ictimai-siyasi, humanitar məsələlər və dini qurumlarla iş şöbəsinin müdiri Elmin İmanov “Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru” kitabı haqqında məlumat verib. Qeyd olunub ki, Vətən müharibəsində qazanılan şanlı Qələbə dövlətimizin başçısı İlham Əliyevin müdrik sərkərdəlik qabiliyyəti sayəsində əldə olunub.

Kitabın əsas xüsusiyyəti Azərbaycanın Vətən müharibəsi tarixini tamamilə yeni bir rakursdan, şəxsiyyət amili baxımından nəzərdən keçirilməsindən ibarətdir.

Fransız dilinin leksikologiyası və üslubiyyatı kafedrasının müdiri, professor Gülnarə Sadıxova çıxışında “Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru” kitabının perspektivləri haqqında danışıb.

O, bildirib ki, Vətən müharibəsinin bitməsinə baxmayaraq, Azərbaycana qarşı ideoloji və informasiya müharibəsi hələ də başa çatmayıb. Kitabın fransız dilində nəşr olunması böyük strateji əhəmiyyətə malikdir.

ADU-nun Pakistan dili və mədəniyyət mərkəzinin rəhbəri Athar Mahmood Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi qələbənin nəticələrindən söz açıb. Fransız dili leksikologiyası və üslubiyyatı kafedrasının baş müəllimi Kəmalə Kərimova “Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru” kitabının vacibliyini diqqətə çatdırıb.

Bildirilib ki, kitabda Prezident İlham Əliyevin 44 günlük müharibə ilə bağlı mülahizələri fransız dilində oxuculara təqdim edilib.

Daha sonra ADU-nun magist və bakalavr tələbələri: İngilis və fransız dilləri fakültəsinin 228 a qrup tələbəsi Səyyarə Məlikova, Xədicə Alışova, 228 c qrup tələbəsi Nərmin Yusifzadə, Rüqəyya Həmzəyeva, Heyran Yəhyayeva, Nilufər Məlikzadə, Magistratura şöbəsinin dilşünaslıq ixtisası, 209-cu qrup tələbəsi Mədinə Yusifova və 330 a qrup tələbəsi Xanım Hüseynova video-slayd şəklində “Vətən müharibəsi tarixi. Şəxsiyyət faktoru” kitabının bölmələrinin qısa izahını veriblər.

# ADU-da tələbə-şagird elmi konfransı



iAprelin 29-da Azərbaycan Dillər Universitetində Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: Konstitusiya qurucusu və milli suverenliyin qarantı" adlı respublika tələbə-şagird elmi konfransı keçirilib.

Əvvəlcə tədbir iştirakçıları Azərbaycan Dillər Universitetinin foyesində Ulu öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla anıblar.

ADU-nun Elmi işlər üzrə prorektoru, professor Həmidə Əliyeva ADU-nun rektoru, akademik Kamal Abdullanın adından konfrans iştirakçılarını salamlayıb, uğurlar arzu edib.

Həmidə Əliyeva bildirib ki, konfransın ideya müəllifi olan akademik Kamal Abdulla şagirdlərin universitet həyatına hazırlanmasına və elmi bacarıqlarının artırılmasına böyük önəm verir. Konfrans həm də Azərbaycan təhsilini daha da inkişaf etdirmək, gəncləri elmə istiqamətləndirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd olunub ki, konfransa müxtəlif ali və orta məktəblərdən olan tələbələr və şagirdlər böyük maraq göstərir.

Konfransa ümumilikdə 900 tələbə və şagird tezislə müraciət edib. Bu fakt Azərbaycan gənclərinin elmə və Ümummilli Liderimizin ideallarına olan marağının bariz nümunəsidir.

Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev dəvətə görə universitet rəhbərliyinə öz təşəkkürünü bildirib, konfransla bağlı fikirlərini bölüşüb.

Bildirilib ki, Ulu öndər Heydər Əliyevə həsr olunan elmi konfrans şagirdlər üçün yeni elmi biliklərin və təcrübələrin öyrənilməsi üçün olduqca vacib bir tədbirdir. Gələcəkdə şagird və tələbələr tərəfindən elmi işlərin görülməsi, tədqiqat işlərinin aparılması baxımından konfransın xidmətləri böyükdür.

Daha sonra çıxış edənlər: ADU-nun Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin birinci kurs tələbəsi Ümid Orucov, Filologiya fakültəsinin birinci kurs tələbəsi Ülkər Əsgərova , Əlcəzairdən olan və ADU-nun Magistratura şöbəsində təhsil alan Oussama Bendouda , İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın 10-cu sinif şagirdi Fəridə Süleymanzadə, Yusif Mirzəyev adına 44 nömrəli tam orta məktəbin 8-ci sinif şagirdi Toğrul Qarayev, Nərimanov rayonu Arif Vəliyev adına 258 nömrəli tam orta məktəbin 7-ci sinif şagirdləri Nigar Anazarlı və Dəniz Hacılı konfransla bağlı düşüncələrini bölüşüblər.

Konfrans işini bölmə iclasları ilə davam etdirib. Konfransın gedişatında iştirakçılara tələbələrin hazırladıqları bədii hissə təqdim olunub.

Bölmə iclasları yekunlaşdıqdan sonra konfransın bağlanış mərasimi keçirilib. Bağlanış mərasimində bölmə rəhbərlərinin çıxışları dinlənilib. Tələbə və şagirdlərin tezisləri müzakirə olunub, elmi işlər haqqında məlumat verilib.

Qeyd olunub ki, konfransda iştirak edən tələbə və şagirdlər öz elmi biliklərini və bacarıqlarını yüksək səviyyədə nümayiş etdirməyi bacarıblar. Elmi rəhbərlər çıxışlarında tələbə və şagirdlər üçün konfransın mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

Bildirilib ki, Ümumilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş "Heydər Əliyev: Konstitusiya qurucusu və milli suverenliyin qarantı" adlı respublika tələbə-şagird elmi konfransı tələbə və şagirdlərin elmi təcrübələrinin artırılması üçün önəmli tarixi hadisə kimi yadda qalacaq.

# Xalq artisti Mənsum İbrahimovla görüş



Azərbaycanın zəngin mədəniyyət xəzinəsinin mühüm simalarından olan muğam sənətinin dünyaca məşhur nümayəndəsi, Xalq artisti, professor və Azərbaycan Milli Konservatoriyasının Muğam kafedrasının müdiri Mənsum İbrahimov Azərbaycan Dillər Universitetində (ADU) keçirilən "Milli musiqi mədəniyyətimizlə bağlı söhbətlər" layihəsinin ilk qonağı kimi böyük hörmət və ehtiramla qarşılanıb. Bu layihə milli musiqimizin təbliği və gələcək nəsillərə ötürülməsi məqsədilə universitetdə xüsusi proqram kimi həyata keçirilir və mədəniyyətimizin bu əvəzsiz incisini tələbələrə, gənclərə, müəllimlərə və musiqi həvəskarlarına təqdim etmək missiyasını daşıyır.

Görüşün keçirildiyi gün ADU-nun böyük akt zalında universitetin rəhbərliyi, professor-müəllim heyəti və tələbələr bir araya gəlib. Xalq artisti Mənsum İbrahimovun geniş şöhrəti və sənətinə verilən yüksək qiymət tədbirin öncədən böyük maraqla qarşılanmasına səbəb olub. Universitetin rektoru, Xalq yazıçısı və akademik Kamal Abdulla tədbirin açılışında iştirakçılara xoş sözlər söyləyərək layihənin milli-mədəni əməkdaşlığın yeni səhifəsi kimi qiymətləndirildiyini vurğulayıb.

Rektor Kamal Abdulla çıxışında Azərbaycan Dillər Universiteti ilə Azərbaycan Milli Konservatoriyası arasında qurulan bu əməkdaşlığın milli musiqi mədəniyyətimizin qorunması və inkişafında mühüm rol oynayacağını qeyd edib. O, ADU-nun son illərdə beynəlxalq QS universitetlər reytinqində qazandığı yüksək yerlərdən danışaraq, burada 20-dən artıq xarici dilin tədris olunduğunu, həmin dillərə uyğun çoxsaylı mədəniyyət mərkəzlərinin fəaliyyət göstərdiyini bildirib. Bu mərkəzlər vasitəsilə yalnız dil deyil, həm də həmin dillərin mənşəyi olan xalqların mədəniyyətləri, adət-ənənələri, tarixləri və musiqiləri tələbələrə təqdim olunur. Bu isə universiteti çoxmədəniyyətli və beynəlxalq əlaqələrə açıq bir təhsil ocağına çevirir.

Kamal Abdulla Pakistan, Rusiya, Çin, Serbiya, Rumıniya, Macarıstan, Çeçenistan və Belarusiyada fəaliyyət göstərən Azərbaycan Dili və Mədəniyyəti mərkəzlərindən bəhs edib. Bildirib ki, bu mərkəzlər vasitəsilə həmin ölkələrin tələbələrinə Azərbaycan dili və milli mədəniyyəti dərindən öyrədilir, onlara ölkəmizin zəngin musiqi və tarixi irsi çatdırılır. Bu, milli diplomatiyanın ən incə formalarından biridir və Azərbaycanın beynəlxalq aləmdə mövqeyini gücləndirir. Rektor qeyd edib ki, universitet gələcəkdə xarici ölkələrdə mədəniyyət və ictimaiyyət xadimlərinin iştirakı ilə görüşlər, konfranslar və konsertlər təşkil etməyi planlaşdırır. Bu tədbirlərdə milli musiqimizin geniş təbliği, mətnlərin müxtəlif dillərə tərcüməsi və xarici auditoriyaya çatdırılması istiqamətində əməkdaşlıq genişləndiriləcək.

ADU-nun Qarabağ müharibəsi dövründə göstərdiyi fəaliyyətlərə də xüsusi diqqət çəkilib. Universitet 20-dən çox ölkəyə Azərbaycan həqiqətlərini əks etdirən məktublar göndərərək haqq səsini dünyaya çatdırmaq üçün ciddi addımlar atıb. Rektor Kamal Abdulla məzunlarla əlaqələrin möhkəmləndirilməsinin vacibliyini vurğulayıb, xüsusilə Şəki, Qax, Qəbələ, Zaqatala və Balakən kimi regionlarda müəllim kimi fəaliyyət göstərən məzunlarla keçirilən görüşlərin həm təhsil, həm də milli birliyi möhkəmləndirmək baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib.

Görüşdə çıxış edən xalq artisti Mənsum İbrahimov tədbirdə iştirak etməkdən duyduğu məmnunluğu ifadə edib. O, Milli Konservatoriya ilə Azərbaycan Dillər Universiteti arasında olan əməkdaşlığın davamlı olacağına və daha da genişləndəcəyinə inamını bölüşüb. Mənsum İbrahimov Muğam-xanəndə kafedrasının müdiri kimi Azərbaycanda keçiriləcək 9-cu muğam televiziya müsabiqəsinin seçim mərhələlərinin artıq başladığını və bu müsabiqənin ölkə musiqi həyatında əvəzsiz rol oynadığını qeyd edib. Onun sözlərinə görə, müsabiqə gənc muğam ifaçılarının üzə çıxarılması və milli musiqimizin yaşadılması üçün böyük bir platformadır.

Xalq artisti həmçinin Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu layihəyə və ümumilikdə milli musiqi sənətinə göstərdiyi diqqət və dəstəyi xüsusi vurğulayıb. O, Qarabağda artıq güllə səslərinin yox, muğamın səsləndiyini böyük sevinc və qürur hissi ilə qeyd edib. Bu, Azərbaycanın mədəniyyətinin və ruhunun sarsılmaz olduğunu, milli irsimizin gələcək nəsillərə ötürülməsində siyasi iradənin və xalq birliyinin nə qədər önəmli olduğunu bir daha təsdiqləyir.

Görüş çərçivəsində "Qarabağ" muğam ansamblının ifası xüsusi rəğbətlə qarşılanıb. Ansamblın ifa etdiyi muğam parçaları dinləyicilərdə dərin təəssüratlar yaradıb və milli musiqi mədəniyyətimizin inceliklərini hiss etməyə imkan verib. İştirakçılar bu konsert proqramını böyük maraq və alqışlarla qarşılayıb, tələbələr arasında muğam sənətinə olan maraq və sevgini daha da artırıb.

Tədbirin sonunda tələbələr və müəllimlər arasında geniş fikir mübadiləsi aparılıb, layihənin gələcək mərhələləri və inkişafı barədə təkliflər müzakirə olunub. Bu görüş milli musiqi mədəniyyətimizin təbliği üçün yeni üfüqlər açıb, ADU və Azərbaycan Milli Konservatoriyası arasında mədəni əlaqələrin daha da güclənməsi üçün zəmin yaradıb.

Nəticə olaraq, Azərbaycan Dillər Universitetində keçirilən bu unikal görüş ölkəmizin mədəniyyətinin zənginliyini, muğam sənətinin əvəzsiz dəyərini geniş auditoriyaya çatdırmaqda, gələcək nəsillərə ötürməkdə əvəzsiz rol oynayıb. Xalq artisti Mənsum İbrahimovun iştirakı ilə bu layihə milli-mədəni irsimizin qorunması və təbliği yolunda atılmış möhtəşəm addımdır.

Beləliklə, "Milli musiqi mədəniyyətimizlə bağlı söhbətlər" layihəsi Azərbaycan musiqi mədəniyyətinin qorunması və təbliği sahəsində mühüm addım olaraq tarixə düşüb. Bu layihə milli musiqi irsimizin gənc nəslə ötürülməsi, həmçinin beynəlxalq aləmdə tanıdılması baxımından böyük perspektivlər vəd edir. Azərbaycanın mədəniyyət paytaxtlarından birinə çevrilən Azərbaycan Dillər Universiteti bu kimi tədbirlərlə ölkəmizin milli-mədəni sərvətlərinin dünya səviyyəsində təbliğinə xidmət edir.

...Xalq artisti Mənsum İbrahimov Azərbaycanın muğam sənətinə böyük töhfələr vermiş dahi xanəndələrindən biridir. O, özünəməxsus səsi, ifa tərzi və dərin emosiya yükü ilə muğamın müasir dövrdə yaşadılması və gənc nəsillərə ötürülməsində öncül rol oynayıb. Mənsum İbrahimovun yaradıcılığı Azərbaycan musiqi mədəniyyətinin inkişafına böyük təsir göstərmiş, onun ifaları ölkə sərhədlərini aşaraq dünya səviyyəsində tanınmışdır.

O, həmçinin Azərbaycan Milli Konservatoriyasında Muğam kafedrasının müdiri kimi fəaliyyət göstərir, muğam sənətinin tədrisində və gənc istedadların yetişdirilməsində əvəzsiz xidmətlər göstərir. Mənsum İbrahimovun rəhbərliyi altında bir çox gənc xanəndə muğam sənətində özünü tanıdıb və bu sahədə müvəffəqiyyətlər qazanıb. O, həmçinin Azərbaycanda keçirilən muğam televiziya müsabiqələrinin təşkilatçılarından biri kimi milli musiqinin televiziyada təbliği sahəsində də əhəmiyyətli işlər görür.

Mənsum İbrahimovun sənətində Azərbaycanın milli-mənəvi dəyərlərinə, xalqın dərdlərinə, sevincinə və ruh yüksəkliyinə xüsusi yer ayrılır. Onun çıxışları, ifaları həm müasir dövrün ruhunu, həm də qədim musiqi ənənələrimizi yaşadır.

Qeyd edək ki, "Milli musiqi mədəniyyətimizlə bağlı söhbətlər" layihəsi Azərbaycan musiqi sənətinin tədrisi və təbliğində yeni bir mərhələdir. Bu layihə tələbələrə milli musiqimizin tarixi köklərini öyrətməklə yanaşı, onları həm də müasir musiqi dünyası ilə tanış edir, milli-mədəniyyətə sevgi və hörmət ruhunda tərbiyə edir.

ADU ilə Azərbaycan Milli Konservatoriyası arasındakı əməkdaşlıq çərçivəsində keçirilən bu görüşlər, musiqi ustadlarının təcrübəsinin gənc nəslə ötürülməsi, tələbələrin milli musiqi irsinə olan marağının artırılması üçün əlverişli mühit yaradır. Eyni zamanda, bu layihə Azərbaycan mədəniyyətinin dünyada tanıdılmasının effektiv vasitəsinə çevrilir.

Gələcəkdə layihənin xarici ölkələrdə də genişləndirilməsi nəzərdə tutulur. Xarici tələbələrə milli musiqimizi tanıtmaq, müxtəlif ölkələrdə Azərbaycan mədəniyyəti mərkəzlərinin fəaliyyətini gücləndirmək, beynəlxalq mədəni mübadilə proqramları təşkil etmək planlaşdırılır. Bu, Azərbaycan musiqisi və mədəniyyətinin qlobal səviyyədə təbliğinə xidmət edəcək.

# Qeyri-səlis məntiq müstəvisində dil-nitqə baxış

## *Kamal Abdulla və Rafiq Əliyevin "Qeyri-səlis məntiq və dil-nitq" kitabı əsasında*

Azərbaycan diliçiliyi və ədəbiyyatının qeyri-səlis məntiq nəzəriyyəsi əsasında təhlili məsələləri akademik Kamal Abdullayev və professor Rafiq Əliyevin "Qeyri-səlis məntiq və dil-nitq" adlı kitabında öz əksini tapmışdır. Bu əsərdə ədəbiyyat və dilçilik məsələləri qeyri-səlis məntiq nəzəriyyəsi əsasında araşdırılmışdır. İnanırıq ki, onların bu araşdırmaları vasitəsilə qeyri-səlis məntiq nəzəriyyəsi azərbaycan dilində azərbaycanlılaşdığı üçün geniş oxucu kütləsinin Zadə məntiqini başa düşə bilmələrinə kömək edəcəkdir.

Lütfi Zadənin qeyd etdiyi kimi qeyri-səlis məntiq nəzəriyyəsi iqtisadiyyat, psixologiya, fəlsəfə, linqvistika, siyasət, sosiologiya, din və başqa sahələri əhatə edəcək. Bu mənada, K.Abdullayev və R.Əliyevin qeyri-səlis məntiq nəzəriyyəsini Azərbaycan dilçiliyi və ədəbiyyatına tətbiqi həm də Lütfi Zadə arzusunun gerçəkləşməsi idi. İnanırıq ki, onların dilçilk və ədəbiyyat məsələlərinə qeyri - səlis məntiq müstəvisində yanaşmaları fəlsəfə, sosiologiya, psixologiya, tibb, din, siyasət, antropologiya, hüquq və başqa sahələrdə yeni ideyaların yaranmasına təkan verəcək. Əslində bu əsərlər tədqiqatçıların Zadə nəzəriyyəsini düzgün başa düşməsi üçün bir yol, mayak və ya pyedestal rolunu oynayacaq. Tədqiqatçılar əsərə istinad etməklə qeyri-səlis məntiqin sütunlarını başa düşəcək və Zadə məntiqinin prinsiplərini öz tədqiqat sahələrinə tətbiq edərək yeni elmi naliyyətlərə imza atacaqlar.

Müəlliflərin qeyri-səlis məntiqin əsas sütunlarının mahiyyəti haqqında ədəbi və riyazi nümunələr əsasında verdikləri izahat oxuculardа Zadə məntiqi haqqında düzgün təsəvvürün yaranmasına bəs edəcəkdir. Onu da qeyd etmək lazımdır ki, əsərin hər bir cümləsi oxucudan düşünməyi, dərk etdikdən sonra növbəti sətrə keçməyi bir sözlə əsər oxucudan holistik yanaşma tələb edir.

İbn Sina, Aristotelin "Metafizika" əsərini başa düşmək üçün Əbu Nəsr əl Fərabinin "Metafizika kitabının məqsədləri haqqında" olan əsərini oxuduğu kimi biz də qeyri-səlis məntiqi düzgün başa düşmək üçün Kamal Abdullayev və Rafiq Əliyevin "Qeyri-səlis məntiq və dil-nitq" adlı kitabını oxumaqdan başlamalıyıq.

Professor Zadə ilə olan müsahibələrdən birində ondan soruşurlar ki, bəs niyə yaşadığınız Amerika və Avropa ölkələrində sizin kəşfinizə maraq göstərmədilər, etinasız qaldılar, amma Şərq ölkələri onu dərhal qəbul etdilər? Böyük alim bunun səbəbini həmin ölkələrdə yaşayan xalqların psixologiyası ilə bağlı olduğunu qeyd edərək demişdir: "Bu həmin xalqların düşünmə və qavrama vərdişləri ilə əlaqədardır. Bildiyimiz kimi, amerikalılar və avropalılar dəqiq düşünmə tərzi, Şərq xalqları isə qeyri-səlis düşünmə vərdişləri ilə xarakterizə olunurlar. Elə buna görə də mənim nəzəriyyəm ilk öncə Şərq ölkələrində öz tətbiqini tapmağa başladı".

K.Abdulla və R.Əliyevin kitabı ilə tanış olduqdan sonra Şərq dünyasında İbn Sinanın, N.Tusinin əsərlərində, eləcə də Azərbaycan folklor materiallarında qeyri-səlis məntiqin izlərini aydın şəkildə görə bilərik. İbn Sina sağlamlıq vəziyyətinin dərəcəsini belə vermişdir: tam sağlam, zəif sağlamlıq, natamam sağlamlıq və aşkar görünməyən xəstəlik; bu və ya digər xəstəliyə olan meylillik; xəstə. N.Tusi isə "Əxlaqi - Nasiri" əsərində nəfs xəstəliklərinin yaranma səbəbini müvafiq keyfiyyətlərin qeyri mötədil yəni "ətraflar" yerində olan miqdarda olması ilə əlaqəli olduğunu göstərmişdir.

Qeyri-səlis məntiqin sütunları haqqında K.Abdullayev və R.Əliyevin izahatı əsasında mahiyyətini dərk edəndən sonra dilimizə, folklorumuza qeyri-səlis məntiqlə yanaşa bilir, qeyri-səlis məntiq yükünün daşıyıcıları olan çoxlu sayda dil-nitq vahidlərini aşkara edə bilirik. Bu sütunlardan biz diaqnostik alət və şərh metodu kimi istifadə edirik.

Məsələn, folklor ədəbiyyatımızda "Atalar üçdən deyib", "Göydən üç alma düşdü..." ifadələrinin hər birində qeyri-səlis məntiqi mühakiməni verbal izlərini görürük. Niyə atalarımız üçdən deyib? Bu sualın niyəsini qeyri-səlis məntiqin sütunları əsasında izah edə bilərik. Belə ki, 1 məcburiyyəti, seçimsizliyi, avtoritarizmi 2 isə məcburi alternativliyi və məcburi ixtiyariliyi ifadə edir. 2 Aristotel məntiqinin "ya.. ya ..da" seçim sxeminə yaxud da "üçüncünün istisinası" qanununa tabedir. 3 isə çoxluğu, seçim müxtəlifliyini, azadlığı ifadə edir. 3 qeyri-səlis məntiqin "nə.. nə.. də" sxeminə uyğundur. Demək ki, K.Abdullayev və R.Əliyevin qeyd etdikləri kimi qədim əcdadlarımızın düşüncə tərzinin demokratik yanaşma üzərində qurulmuş olduğu üzə çıxır.

Hörmətli alimlərimiz qeyri-səlis məntiqin dörd əsas sütununu aşağıdakı kimi ifadə ediblər:

1) qeyri-səlis çoxluqlar sütunu;
2) qeyri-səlis məntiq sütunu;
3) epistemoloji sütun;
4) münasibətlər sütunu.

Qeyri-səlis çoxluqlar sütunun əsas qayəsi odur ki, dünyada Tanrıdan başqa hər bir şeyin, hər bir hadisənin dərəcəsi var. Qeyri-səlis məntiqin bu sütununa görə əgər biz hər hansı çoxluğu nəzərdən keçiririksə, onda universumda olan bütün elementlərin bu çoxluğa aidliyini qəbul edirik. Qeyri-səlis çoxluqlar sütunu yazılı və şifahi nitqdə informasiyanın təhlili zamnı subyektin ifadə etdiyi fikrə münasibətini bildirən felin modallığını nəzərə almağımızı zəruri edir. Zadə məntiqinin bu sütundan istifadə tibbdə, psixologiyada və psixoterapiyada pasiyentin özü və ətrafdakılarla bağlı hiss və düşüncəsinin psixodiaqnostikasını aparmaq üçün bir vasitədir.

Qeyri-səlis məntiq sütunu. Klassik formal məntiqinə əsasən verilmiş müddəa kəskin sərhəd əsasında mühakimə yürüdür. Qeyri-səlis məntiq isə qətilik prinsipini aradan qaldırır və aralıq dərəcələri də qəbul edir. Klassik məntiq "ya ... ya.. da", sxemi əsasında mühakimə yürütdüyü halda qeyri-səlis məntiq K.Abdulla və R.Əliyevin qeyd etdikləri kimi "üçncünün istisinasının istinası" mühakiməsinə uyğun olaraq "nə...nə.. də" sxemi ilə hərəkət edir. K.Abdulla və R.Əliyev qeyri-səlis məntiq sütununu - çoxqiymətli məntiqin genişlənməsi kimi tərif etmiş və burada doğruluq qiymətinin linqvistik dəyşənlə ifadə olunduğu bildirirlər. (276). Qeyri-səlis məntiqə əsaən çoxluğa mənsubluq dərəcəsi 0 və 1 də daxil olmaqla aralarındakı istənilən rəqəmlə ifadə edilir. Sıfır (0) çoxluqda tamailə yoxdur, bir (1) çoxluqda tamamilə var, aralarındakı ədəd isə çoxluqda qismən var deməkdir.

Qeyri-səlis məntiqin epistemik sütunu. Zadənin fikrinə görə təbii dil persepsiyalar sistemidir. Bu o deməkdir ki, təbii dil ölçülə bilməyən informasiyanın təsvir sistemidir. Məsələn, paltarın kirliliyini persepsiya yolu ilə təbii dildən istifadə edərək təyin edirik: çox kirlidir - kirlidir - bir az kirlidir - azacıq kirlidir. Deməli, epistemik sütunun köməyi ilə mətndə müəllifin gizlətdiyi informasiyanı gizlindən çıxarmaq mümkün olur. Qeyri-səlis epistemologiya faseti ilə qeyri-müəyyənlik müəyyən oluna bilir. Məsələn, Təpəgözü tam olaraq görə bilməmiz üçün onun hannibal, günah hissi yaşayan və özünə ölüm arzuladığı halını bütövlükdə götürmək lazımdır. Bütöv Təpəgöz bü üç dərəcənin, halın birliyində dərk oluna bilər.

K.Abdullayev, R.Əliyev hedc anlayışını qeyri-səlis məntiqin baza elementi və onun əsas ifadə vasitəsi kimi qeyd edirlər. Dil-nitqdə semantik-informativ boşluqlar dil-nitq təqribiliyindən yarandığını qeyd edən müəlliflər bu boşluqları doldurulan və doldurula bilməyən boşluqlar olaraq fərqləndirirlər. Bu boşluqları zəngin fantaziya yaxud da "qara dəliklər" adlandıran müəlliflər hedcləri həmin boşluqların sanki örtən çətirə bənzədirlər. Bu şəkildə hedclər həmin boşluqları doldurmuş olurlar. Doldurulmayan boşluqlardan danışan müəlliflər qeyd edirlər ki, bəzi hallarda mətnlərdə elə asemantik boşluqlara rast gəlinir ki, onların üzərinə "semantik" çətir tutmaq mümkün olmur. Müəlliflər, hannibal, qəddar Təpəgözlə günah hissi yaşayaraq intihar arzusunda olan Təpəgöz arasındakı asemantik boşluğun doldurula bilmək üçün hedcin olmadığı qənaətindədirlər.

K.Abdulla Təpəgözü Azərbaycan ədəbiyyatında günah hissi daşıyan ilk qəhrəman hesab edir. Öldürüb yediyi günahsız adamlara görə özünə qəsd etmək istəyən qəhrəmandır. K.Abdullanın sözü ilə desək psixolojisi dolğunlaşan Təpəgöz bizim fikrimizə görə "Təbiət-Mədəniyyət" qarşıdurmasında əlahəzrət mif, Təpəgözü bəşər olmaqdan insan olmağa keçid etdirə bilmişdir. Təbiətdən mədəniyyətə keçid dəvəti Dədə Qorqud tərəfindən Basata da edilir. Dədə Qorqud, evdən təbiətin qoynuna - aslan yatağına qaçan Basata belə deyir: Oğlanım, sən insansan, heyvanla müsahib olmagil! Gəl yaxşı at min. Yaxşı yigitlər ilə iş yürüt.

Təpəgözün sonda günah hissi keçirməsi onun mədəniyyətə keçid etdiyini yəni özünün bəşər təbiətindən uzaqlaşması və daxilən üstün bir mərtəbəyə insaniyyət mərtəbəsinə keçdiyini göstərir.

Günah hissi əsasən yaşanılmış stressin kompensasiya mexanizmi kimi təzahür edir, introspeksiya və refleksiya nəticəsində yaranan dərin hissidr. Təpəgözün günah hissini yaşaması katarsis halını keçirəndən sonraya düşür. Katarsis, şəxsin ciddi emosional və ya zehni təcrübə nəticəsində emosional təmizlənmə, boşalma və aydınlanma yaşaması kimi başa düşülür. Katarsis, daxili emosional gərginliyin xaricə çıxardılaraq onlardan təmizlənmə prosesini ifadə edir. Təpəgözdə katarsis halı Basatla vuruşarkən tək olan gözünü itirdikdən sonra baş verir. Beləliklə, Təpəgözün günah hissini yaşaması təbiətmədəniyyət qarşıdurmasında onun katarsis keçirərək bəşər mərtəbəsindən insaniyyət və adamiyyət mərtəbəsinə addım atdığını göstərir.

Dil-nitq inkişafını səlislikdən qeyri-səlisliyə doğru inkişaf etdiyini göstərən müəlliflər dil qatını səlislik, nitq qatını isə qeyri-səlislik məkanı kimi dəyərləndiriblər. Bizə görə nitqin qeyri-səlislik xüsusiyyəti nitq daşıyıcı olan insanın individuallığı ilə əlaqəlidir. İnsan, ruh və bədənin vəhdətindən yaradılan mikrokosmos olduğu üçün o səlis olmaqdan daha çox olaraq qeyri-səlisdir. Qeyri-səlis məntiqin qeyri-səlis çoxluqlar sütununa görə Tanrıdan başqa hər bir şeyin, hər bir hadisənin dərəcəsi var. Metakosmos olan Allahdan savayı makrokosmos (təbiət) və mikrokosmos (insan) hər ikisi qeyri-səlisdir.



**Ceyhun ALIYEV,**
**psixologiya üzrə fəlsəfə doktoru, dosent,**
**Psixologiya kafedrasının müdiri**

# Koreya yazıçısının əsəri ADU tələbələrinin tərcüməsində

***Tanınmış Koreya yazıçısı Qonq Ci Yonqun "Nənəm ölmür ki, ölmür" əsərini ADU-nun tələbələrinin tərcüməsində təqdim edirik.***



**Yazıçı haqqında qısa məlumat**

Koreyanın müasir qadın yazarlarından olan Qonq Ci Yonq공지영 1963-cü ildə Seulda anadan olub və Yonsei Universitetinin İngilis dili və ədəbiyyatı fakültəsini bitirib. 1988-ci ildə həbsxanada olarkən yazdığı "Ağaran dan yeri" 동트는 새벽adlı qısa hekayəsini "Yaradıcılıq və Tənqid" 창작과 비평 jurnalında dərc etdirərək ədəbi fəaliyyətə başlayıb. 1989-cu ildə ilk romanı olan "Artıq gözəl sərgərdanlıq yoxdur"더 이상 아름다운 방황은 없다 ilə yazıçı kimi fəaliyyətini davam etdirmiş və 1993-cü ildə "Tək qal, kərgədan buynuzu kimi" 무소의 뿔처럼 혼자서 가라 romanı ilə qadınlara qarşı ayrı-seçkilik və təzyiqləri mövzu edərək Koreyada yeni bir qadın ədəbiyyatının və feminist ədəbi yaradıcılığının qapısını açmışdır. 1994-cü ildə "Skumbriya" 고등어və "İnsana qarşı nəzakət"인간에 대해 예의adlı əsərləri ard-arda bestsellerə çevrilərək onu oxucular arasında ən çox sevilən və tanınan Koreya yazıçılarından birinə çevirmişdir. Yazarın əsas əsərləri aşağıdakılardır:

Romanlar: "Bonqsun bacı" 봉순이 언니 (Azərbaycan dilinə Əliyeva Bahar tərcümə etmişdir, Qanun nəşriyyatı, 2024), " İtaətkar qadın"착한 여자, "Xoşbəxt çağlarımız" 우리들의 행복한 시간, "Evim, gözəl evim" 즐거운 나의 집, "Qaynaq qazan" 도가니, "Göyə ucalan nərdivan"높고 푸른 사다리, "Hari "해리, "Uzaq dəniz" 먼 바다.

Hekayə topluları: "İnsana qarşı nəzakət" 인간에 대한 예의, "Varoluş göz yaşı tökür" 존재는 눈물을 흘린, "Ulduz" tarlası 별들의 들판.

Esse və publisistika: "Yarasız ruh" 상처 없는 영혼, "Yağış damlası kimi tənha idim" 빗방울처럼 나는 혼자였다, "Gong Ji-young-un səyahət qeydləri" I, II hissə 공지영의 수도원 기행, "Sən necə bir həyat yaşasan da, mən səni dəstəkləyəcəyəm" 네가 어떤 삶을 살든 나는 너를 응원할 것이다, "Çox yüngül bir lələk"아주 가벼운 깃털 하나, "Qonq Ci-yonq-un Cirisan məktəbi" 공지영의 지리상 행복학교, "Qızıma verdiyim resept "딸에게 주는 레시피, "Şairin süfrəsi"시인의 밥상, "Buna baxmayaraq" 그럼에도 불구하고.

Qonq Ci Yonq, 2001-ci ildə XXI Əsr Ədəbiyyat Mükafatını, 2002-ci ildə Koreya Roman Ədəbiyyatı Mükafatını, 2004-cü ildə Oh Yeong-su Ədəbiyyat Mükafatını, 2007-ci ildə Koreya Katolik Ədəbiyyatı Mükafatını və 2006-cı ildə Amnesty International tərəfindən verilən Xüsusi Media Mükafatını qazanmışdır.

## Nənəm ölmür ki, ölmür

**I Hissə**

"Görəsən, bu evdə ağlı başında olan varmı?" - deyə soruşmaq istəyir və elə buna görə də bu yazını yazıram. Çox güman ki, indi danışacaqlarıma heç kim inanmayacaq, çünki əlimdə bunu sübut edəcək heç bir elmi əsasım yoxdur. Ancaq indi deyəcəklərimi hər hansı bir məşhur yazıçı, jurnalist yaxud aktyor və ya qrupdan yeni ayrılmış tanınmış müğənnilərdən biri mətbuat konfransında dilə gətirsə idi, vəziyyət tam fərqli olardı. Bəlkə də "Dünyada baş verənlər" ya da "İstər inan, istər inanma" kimi proqramlarda evimizdə baş verənləri danışa və olanlardan məntiqi nəticə çıxaran qız kimi ictimaiyyətə üzümü tutaraq müsahibə belə verə bilərdim. Amma mənim cəmi on doqquz yaşım var, Seulun tanınmış universitetlərinə qəbul olma ehtimalım da çox azdır, buna görə də nəinki şəxsiyyəti və zəkası, hətta danışdıqlarının doğruluğu belə şübhə altına alınacaq gənc bir qızam. Yaşadığım on doqquz illik həyatima and olsun ki, bir müddət bundan əvvələ qədər ağlım başımda idi, ancaq indi buna belə şübhə edirəm. Məhz bu səbəbdən qəbul imtahanına hazırlığımı yarımçıq qoyub bu əhvalatı qələmə alıram. Çünki evimizdə baş verən qeyri-adi hadisələrin qarşısındakı çarəsizlikdən sizin fikirlərinizi öyrənmək istəyirəm.

Çoxdan bəri "sağlam münasibət" yaşadığımı düşündüyüm köhnə sevgilimdən də bir xəbər olmaması məni lap darıxdırır. Dərs oxumamaq üçün bəhanə uydurduğumu düşünərək məni günahlandıran insanlar da ola bilər. Belə baxanda, dərs oxumamaq üçün bəhanəm çoxdur: Hava isti, nənəm də xəstə... Üstəlik, ayrılığın verdiyi iztirab... "Həyatımdan çoxları gəlib-getsə də … sən fərqli idin… Sən tezliklə məni unudacaqsan, amma mən bunu bacarmayacağam…" - hər dəfə birindən ayrıldıqda düşündüyüm bu sözləri ona e-poçtla da göndərə bilərdim. Amma artıq bunu etməyəcəm. Çünki bir vaxtlar səmimi olan bütün hisslər kimi bunun da sonunda peşmanlıq olacağından əminəm. Lakin bir şeyi qəti olaraq bilirəm: onun məndən ayrılmağa qərar verməsində, yəqin ki, bizim ailədəki vəziyyətin həlledici rolu olduğunu... Bura qədər yazdıqdan sonra bunu da qeyd etməliyəm ki, onun mənimlə tanış olmasının səbəbini də elə bizim ailədə axtarmaq lazımdır. Ailəmizin Qanqnamın məşhur dördyolunda böyük bir binası var və bizim ailə üzvlərinin işi həmin binadan kirayə pulu toplamaqdan ibarətdir. O vaxtlar "Əlimizdə ancaq pul var!" zarafatını, pulun çox olduğunu vurğulamaq üçün deyil, bəlkə də "Puldan başqa heç nəyimiz yoxdur!" mənasında - ailədən gələn məsəl kimi başa düşən, yaşından tez böyüyən yetkin uşaq idim.

Onunla ilk dəfə görüşdüyüm gün anamın sürdüyü Porşedə idim. O, avtomobilə minəndə "Ooo... bu lap əladı ki…" - dedi. Bu sözlərin mənə yox, avtomobilə aid olduğunu düşünəndə keçirdiyim inciklik onun həm yaraşıqlı, həm də tanınmış universitetin tələbəsi olmasından qaynaqlanırdı. Lakin artıq bu haqda daha çox izahat vermə əziyyətinə girməyəcəyəm. Çünki bunun indi danışacaqlarımla heç bir əlaqəsi yoxdu.

Görəsən, o oğlanın evimizə son gəlişi bir ay olardımı?! O vaxtlar bizim evimiz hələ də davam etməkdə olan çaxnaşmanın tən ortasında idi. O, nənəmi ziyarət etməyi bəhanə edərək əlində meyvə səbəti ilə bizim evə gəlmişdi. Xeyr, əslində ziyarət etmək ifadəsi, zənnimcə, bir az qəribə səslənir. Elə isə ziyarətinin əsas səbəbi nə idi? Gələcək kürəkəni kimi nənəmin son nəfəsində yanında olmaq? Yoxsa, öz üç hərfli adını nənəmdən miras alacaq şəxslərin siyahısına salmaq üçün yaxşı təəssürat yaratmaq? Nəzərə alsaq ki, o çox ağıllı adamdır, öz planını "yaşlıların qarşısında gənclərin borcu" kimi əsaslandırma ehtimalı yüksək idi. O, ömür boyu "kasıb, ancaq dürüst yaşadı" sözlərini əvvəlcədən hazırladığı məzar daşına yazdıran məmur atamı belə "qoca qurd" adlandırmaqdan həzz alırdı. Baxmayaraq ki o ağıllı idi, bəzi şeyləri hesaba qatmamışdı. O bizim Porşe sürəcək qədər varlı olduğumuzu gördükdən sonra evimizdə digər şeylərin də qeyri-adi ola biləcəyini təxmin etməmişdi.

Nənəni ziyarət... Bu biraz mübahisəli məsələdir. İfadələrə belə həssas yanaşmağımın səbəbi olduqca mürəkkəbdir. Çünki nənəm artıq altı aydır ölmür ki, ölmür.

Nənəm ölmür ki, ölmür demək hekayəni dramatik ya da ekzistensial səsləndirirmi bilmirəm, ancaq belə desək, bu bir qədər qarışıq məsələdir. Yəni əslinə qalsa, nənəm altı ay əvvəl ölmüş olmalı idi. O vaxt həkim tibbi əsaslara dayanaraq demək olar ki, nənəmin ölüm fərmanını vermişdi, buna görə də qida borusu xərçəngi səbəbindən on gündür bir qurtum belə su içə bilməyən nənəmi evə gətirmişdilər. Anamla atam, böyük dayım və təzə evlənən kiçik dayıma qədər hər kəs toplaşaraq öldükdən sonra onu kremasiyamı edəcəklər, yoxsa dəfnmi edəcəklər deyə qızğın müzakirə aparırdılar. Doğrusu, nənəmi sevməsəm də, evimizdəki vəziyyət elə bir həddə çatmışdı ki, insan nədir, ölüm nədir... düşünməyə başlamışdım. Nəticə etibarilə, hər kəs dünyadan əliboş gedirmiş, anamın dedikləri doğru imiş: nənəmin həyatı keşməkeşli keçdiyinə görə pula bu qədər hərisdir, əslində pis adam deyil... Az qalsın belə fikirləşəcəkdim. "Az qalsın belə fikirləşəcəkdim" deməyimin səbəbi əslində heç nəyin gözlənildiyi kimi getmədiyini göstərir.

Nənəm müasir elmin bütün imkanlarından istifadə edən həkimin gözləntilərinin əksinə nə bir həftə, nə də bir ay sonra öldü.

Nənəmin üzü kömür kimi qaralmışdı, nəfəsi isə gedib-gəlirdi. O nəfəs alanda elə bil vəhşi qaz çığırırdı. Hərdən onun vəziyyətini yoxlamaq üçün evə baş çəkən qohumlarımız isə onun otağına yaxınlaşmağa belə ehtiyac duymadan qonaq otağında rahatca oturub pendir və qızıl balıqdan ibarət qəlyanaltı ilə viski içərək qolf haqqında söhbət edirdilər. Nənəm barədə dedikləri isə, ən yaxşı halda yalnız bu cümlədən ibarət olurdu: "Canı ilə nə çox əlləşir e… ölsə idi, rahatlıq tapardı..." Bütün bunları deyərkən özlərini olduqca mərhəmətli hesab edir, sanki hər şey yalnız nənəmin mənafeyi üçün imiş kimi davranırdılar.

Və belə günlərin birində hadisələr cərəyan etməyə başladı. Nənəm vəhşi qazın çığırtısı kimi xoş olmayan səslər çıxarsa da, ən azından nəfəs alış-verişi zərb alətinin ritmi kimi nizamlı idi. Lakin həmin gün bütün gecə boyunca nəfəsi nizamsız şəkildə gah dayanır, gah da düzəlirdi. Qohumlar birgə nənəmin ətrafına toplaşıb oturmuşdular. Ancaq nənəm həmin günün sabahı tezdən oyanmış və yatağında oturmuş vəziyyətdə tapılmışdı. Tapılmışdı...deməyimin səbəbi isə gecə nənəmin can verdiyini düşünüb onun keşiyini çəkən kiçik dayımın ölü halda tapılması idi.

Bundan ilk xəbər tutan, neçə illərdir ürək xəstəliyindən əziyyət çəkən anam idi. Anam nənəmə qulluq etməkdən artıq tükənmişdi, gecələr isə demək olar ki heç yata bilmirdi və buna görə də yuxu dərmanı qəbul edirdi. Həmin gün də bütün işləri gənc dayıma həvalə etmiş, özü isə, deyəsən, yuxu dərmanının təsiri altında yatıb qalmışdı. Beləliklə həmin gün axşamüstü dərin yuxuya getmiş, səhər tezdən isə qışqırıq və çağırış səsinə bənzər qəribə səslərlə yuxudan oyanmışdı. Anam o səsi yuxu dərmanının təsirindən huşsuz halda eşitdiyini demişdi. Gəlin anamın dediklərinə dinləyək.

"Mən tam ayıq idim. Eşitdiyim səsin anamın otağından gəldiyindən əmin olsam da, bunun nə səs olduğunu anlaya bilmirdim. Əmin idim ki, o bu gecəni çətin sağ çıxa. Yəqin buna görə də kiçik dayınız zarıyır. Lakin yuxulu-yuxulu qulaq asıb gördüm ki, qışqırıq səsi cavana, mızıltı isə qocaya aiddir. Qışqırıq artdıqca qocanın deyinməyi də sürətlənirdi. Düşündüm ki, qalxmalıyam. Görəsən, yuxumu görürdüm, yoxsa otağa oğrumu girmişdi, heç cür anlaya bilmirdim. Üstəlik ,sanki bədənim iflic olmuşdu, tərpənə bilmirdim. Bir anda qışqırtı da, mızıltı da kəsildi. Həmin an möcüzə kimi bədənimi hərəkət etdirə bildim. Əvvəlcə elə bildim ki, hələ də yuxudayam. Buna görə də atanızı oyatmağa çalışdım. Ancaq o gecə elə içmişdi ki oyana bilmədi... Mən anamın otağına təkbaşına daxil olub onu oturmuş vəziyyətdə gördüm. Hələ də bunun yuxu olub-olmadığını anlaya bilmirdim. O məni görən kimi "sıyıq gətir", - dedi. Sonra gördüm ki, kiçik qardaşım ölüb. Bundan sonrası isə hamıya məlumdur..."

Bizim gördüyümüz və eşitdiyimiz bunlardır. Kiçik dayım öldü, nənəm isə dirildi. Kiçik dayımın vəfat səbəbi 30 yaşlarında qəfil ölüm kimi qeyd edildi. Nənəmin yas mərasimi üçün hazırlanmış yeməklər olduğu kimi kiçik dayımın yas mərasimində istifadə edildi. Nənəm kiçik oğlunun ölümü kimi ağır vəziyyətdə belə sıyıqdan əl çəkmir, dolu qaşığı ağzına qoyduqdan sonra sıyıq kasasını kənara qoyub: "Sıyıq yeyə bilmirəm! Düyü gətir! Ağ düyüdən!" - deyirdi.

**Tərcümə edənlər:**
**Tərcümə fakultəsi, Koreya dili tərcümə ixtisasının B22-358 qrup tələbələri:**
**Aytac Muradova,**
**Cəmalə Məmmədova,**
**Məryəm Kərimova,**
**Muhammed Musa,**
**Nərgiz Talıblı,**
**Nigar Adgözəlova,**
**Nigar Vəliyeva,**
**Nuray Xudiyeva,**
**Xədicə Kərimli,**
**Zamin Vahablı**

# Qızıl Ulduzun əmanəti

*(hekayə)*

Məhərrəm önündə axan Tərtərçaya və Kəlbəcərin sıx dağ meşəsinə baxdı. Yuxuda olduğunu bilirdi, amma, burada olmaq onu rahatladırdı. Xüsusən də çayın gur şırıltı səsi. Doğrusu, buna çox ehtiyacı var idi. Axı, yaşadığı hadisə bütün həyatını dəyişdirmişdi. Havanın soyuqluğundanmı, yoxsa həmin günü xatırlamasındanmı burnunun ucu göynəyirdi. Əslində, Məhərrəm o günü heç vaxt unutmamışdı. Həmin gün həm yaxın dostunu, həm də travma aldığı üçün işini itirmişdi.

2020-ci ilin oktyabrın 8-də Gəncə raket atəşinə tutulmuşdu. Səhərisi gün Məhərrəm digər jurnalist həmkarları kimi hadisə yerinə getmişdi. Hadisə yeni baş verdiyindən hüquq-mühafizə orqanlarının təhlükəsizlik tədbirləri ilə sadəcə müəyyən qədər xəbər toplaya bilmişdilər. Operator yoldaşı Sırac narazı ifadə ilə kamerasını çantasına yerləşdirirdi:

- Neynəyək indi? Bakıya geri qayıdaq? - deyə Sırac soruşdu.

Məhərrəm bir qədər fikirli görünsə də, qəti şəkildə cavab verdi:

- Yox. Burada olmağımız daha yaxşıdır.

Sırac Məhərrəmin fikri ilə razılaşdı.

Sonrakı günlər ard-arda hadisə yerinə getdilər. Oktyabrın 11-i yenə hər ikisi hazırlaşıb hadisə yerinə getdi. Bu dəfə istədikləri bütün görüntüləri əldə edə bilmişdilər. Sırac kamerasındakı görüntüləri yoxlayırdı. Hər görüntüdə bir az daha enirdi gözünə qəm pərdəsi. Kim bilir neçə ailə üzvü canından olmuşdu. Görüntülərə baxdığı üçün ayaq saxladı. Məhərrəm isə telefonda kanalın əməkdaşı ilə danışdığından, özünün də xəbəri olmadan bir xeyli uzaqlaşmışdı.

- Burda işimiz bitdi, artıq, - deyərək Məhərrəm arxaya döndü.

Lakin həmin an eşidilən güclü uğultu səsi, endirilən raket ilə hər tərəf yerlə- yeksan olmuşdu. Məhərrəm qulaqlarını tutaraq ətrafa baxdı. Yerdə cansız qalan insanlar, qorxudan qışqıraraq qaçanlar... Bu görüntü qarşısında nə edəcəyini bilmədi. Sıracı tapmaq üçün qaçaraq ətrafa boylandı. Yerdəki paltardan və kameranın qırıq parçasından Sırac olduğunu anladı.

Məhərrəm həmin anı silmək istəryirmi? kimi gözlərini sıxdı. Birdən önündə iki adam gördü. Gözlərinə inanmadı. Bunlar, Sırac və sinəsində "Qızıl ulduz" medalı daşıyan Çingiz Mustafayev idi.

- Uğrunda can verdiyimiz dəyərləri sizlərə əmanət etmişik, - dedi Çingiz.

- Bu qorxu sənin peşənə əngəl olmasın, qardaşım. Qorxma, irəlilə. Çünki hər addımında biz varıq.

Bu sözlər Məhərrəmi yuxudan oyatdı.



**Rəvanə KƏRİMOVA,**
**Beynəlxalq Münasibətlər və Regionşünaslıq fakültəsi**
**482 C qrup**

# Saxta həyat

*(esse)*

Həyatınızdakı seçimləri düşünün. Öz azad qanadlarınızla uça biləcəyiniz bir səma var, amma sizdən soyuq suların dərinliklərində üzməyinizi gözləyirlər. Siz kəpənəksiniz - rəngli qanadlarınızla günəş işığında rəqs etmək, öz yolunuzu tapmaq üçün dünyaya gəlmisiniz. Ancaq hər addımda, hər yerdə sizdən başqa cür olmağınızı tələb edirlər.

Öz istəklərinizi, arzularınızı reallaşdırmaq, daxili rahatlığınızı tapmaq istəyirsinizmi? Onda sizin üçün yalnız bir həqiqət var: ruhunuza xəyanət etməyin. İnsan həyatda çox vaxt özünü azad bir kəpənək kimi hiss etmək istəyir - öz rənglərini, öz təbiətini sərgiləmək, öz qanadları ilə uçmaq. Ancaq bəzən ətrafdakıların gözləntiləri və tələbləri bu azadlığı əlimizdən alır. Belə bir vəziyyətdə insanın daxili dünyasında bir çatışmazlıq və təzyiq yaranır: özün olmaq istəyi ilə başqalarının istədiyi kimi olmaq arasındakı mübarizə. Ətrafdakılar fərdi öz təbiətinə uyğun olmayan yollara yönətldikdə insanın daxili təbiəti ilə başqalarının ondan gözlədikləri arasında bir ziddiyyət yaranır. Bu ziddiyyət, bəzən insana qarşı soyuq bir təzyiqə çevrilir. Sanki ətrafdakı hər kəs onun daha praktik, daha uyğun bir şəkildə hərəkət etməsini, "qaydalara" uyğunlaşmasını tələb edir. İnsan öz ruhunun, şəxsiyyətinin və bacarıqlarının uyğun olmadığı bir yolda irəliləməyə məcbur edildikdə, öz daxili rahatlığını itirir və bir növ "saxta" həyat yaşamağa məcbur olur.

Başqalarının bizdən gözlədikləri tələblərdən azad olmaq üçün öncəliklə öz şəxsiyyətimizi tanımalı, öz qabiliyyətlərimizə və arzularımıza güvənməliyik. İnsan özü ilə səmimi bir bağ qurduqda və öz potensialını tanıdıqda, başqalarının tələblərinə qarşı müqavimət göstərə bilər. Bu, cəsarət tələb edir, çünki insan bəzən başqalarının təzyiqlərinə boyun əyməməli və öz yolunu seçməlidir. Ancaq bu yol, insanı daxili rahatlığa və xoşbəxtliyə aparan yeganə yoldur. Məsələn, gənc bir insanın öz valideynlərinin və cəmiyyətin gözləntilərinə uyğun olaraq bir sahəyə yönəndirilərək, öz istədiyi peşədən, maraqlarından uzaqlaşması mümkündür. Bu cür vəziyyət fərdin daxili ziddiyyətlər yaşamasına, öz kimliyini axtarmasına və bəzən ruhsal gərginliklərin yaranmasına yol açır. Bu vaxt insanlar müvəffəqiyyət standartlarına görə qiymətləndirərkən, onların unikal şəxsiyyətləri ikinci planda qalır.

Hər bir insan bu dünyaya özünəməxsus istedad və xəyallarla gəlir. Bəziləri sənətdə, digərləri elm və texnologiyada, kimisi humanitar sahələrdə özünü ifadə etməyə meyillidir. Gənc yaşlarından etibarən insanlara müxtəlif gözləntilər yüklənir. Valideynlər, ətrafdakı insanlar, hətta müəllimlər belə, bəzən uşaqlara öz təcrübələri və ya həyata baxışları əsasında istiqamət verməyə çalışırlar. Bəzən isə bu gözləntilər uşaqların təbiətinə və maraqlarına uyğun olmur. Məsələn, aktyorluğa böyük marağı olan bir uşaq, valideynlərinin onun həkim, hüquqşünas və ya mühəndis olmasını istəməsi ilə qarşılaşa bilər. Uşağın incəsənətə marağı və sevgisi onu öz yoluna çağırır, amma ailəsinin gələcək haqqında fərqli düşüncələri onu öz ruhundan uzaqlaşdırır. Belə bir vəziyyətdə uşaq öz təbiətini boğaraq valideynlərin tələblərinə uyğunlaşmağa çalışır.

Bu cür ziddiyyətlər yalnız uşaqlıq dövründə deyil, həyatın müxtəlif mərhələlərində də qarşımıza çıxır. Universitet seçimindən tutmuş peşə seçimlərinə qədər bir çox insan ətrafındakıların fikirlərinə uyğun qərarlar qəbul edir və nəticədə öz istədiklərindən uzaqlaşır. Belə ki, öz təbiətinə uyğun olmayan yolda irəliləməyə çalışmaq, insanın daxili harmoniyasını pozur və öz mənliyini itirməsinə səbəb olur.

Əsl xoşbəxtlik və daxili sülh insanın öz şəxsiyyətinə uyğun yaşadıqda yaranır. Hər kəs öz daxili səsini dinləməyi və onu həyata keçirməyi bacardıqda, əsl mənada azad olur. Bu isə, öz ruhunu izləyərək yaşamaqla mümkündür. Özünə sadiq qalmaq, insanı daxili rahatlıq və xoşbəxtliyə qovuşduran yoldur.

Kəpənək olmaq yalnız fiziki sərbəstlik deyil, eyni zamanda ruhun azadlığını ifadə edir. Daxili rahatlığımızı tapmaq üçün başqalarının gözləntilərini ataraq, özümüzü ifadə etməkdə cəsarətli olmalıyıq.

Hər birimiz öz daxili kəpənəyimizi tapmaq, onu açmaq və həyatı bütün gözəllikləri ilə yaşamaq üçün buradayıq. Bu həm də həyatın verəcəyi bütün çətinliklərə qarşı durmağın, cəsarətlə öz yolumuzu seçməyin və ruhumuzu gerçəkləşdirməyin bir çağırışıdır. Beləliklə, həyatda yalnız bir doğru yol vardır: kəpənək olmaq, başqalarının tələbləri ilə deyil, öz ruhumuzun tələbi ilə yaşamaq. Hər bir kəpənək öz gözəlliyini kəşf etdikdə, ətrafındakı dünyaya da işıq saçacaq və başqalarına da azadlığın və özünü ifadə etmənin nə qədər gözəl olduğunu göstərəcəkdir.



**Məryəm BAĞIROVA,**
**Tərcümə fakültəsi**
**250 B qrup**

## Zəfər dastanı

Yolunuz şərəfli, özünüz igid,
Tarixə dastanı yazan oldunuz.
Vətənim dardadır deyib, ay ana,
Gözlərdən yaşları silən oldunuz.

Siz birləşib bircə yumruq oldunuz,
Bu yumruğa dəmir yumruq deyildi.
Yumruqdakı gücə baxın ilahi,
Düşmənlərin bayrağını endirdi.

Bir payız səhəri durub ayağa,
Dediniz biz artıq gedirik, ana.
Qarabağ bizimdir, bizim olmalı,
Torpaqdan bir ovuc gətirrik sana.

Zəfərə hər addım irəlilədikcə,
İlhamla irəli, deyib getdiniz.
Belə başçımızla, belə sevinclə
Vətənə sədaqət andı içdiniz.

Bu Vətən suyuyla, öz havasıyla,
Nə igid oğullar yetirib bizə,
O qədər qəhrəman, o qədər qorxmaz
Düşmənlə hünərlə durdu üz-üzə.

Bir payız səhəri 8 Noyabr,
Azərbaycan al-əlvana boyandı.
Zəfər çaldı bu döyüşdə igidlər,
Bütün xalqım bu bayrama oyandı.

Otuz ildir, biz hər şeyə dözürdük,
Sözün düzü, çox oğullar itirdik.
Sən başını uca tutasan deyə,
Çox dözsəkdə axır burda bitirdik.

Zəfər gülün, zəfər günün, dastanın
Bu savaşda rəmzlərə çevrildi.
Haqq axır ki, öz yerini tapıbdı,
Azərbaycan bu cahanda sevildi.

Şənə zəfər yaraşır, ey Azərbaycan!
İgidlərin yazdılar bu zəfərə bir dastan.
Bu dastanı ömrü boyu yaşadıb,
Unutmarıq, unutmarıq heç zaman.

## Cənnətim Qarabağ

Nə gözəl yaradıb Yaradan səni,
Cənnətin özüsən, canım Qarabağ.
Vəsfinə qoşulan bu şeirlərin
Misrası, sözüsən, gözəl Qarabağ.

Cıdır düzündəki qışın, həm yazın,
Görməli yerlərin çoxdur nə yazım?
İstisu dərdlərə dərmanmı yazım?
Yoxsa ki, kəm baxan gözlərdən yazım?

Gözəlliyin heyran etdi dünyanı,
Qoynunda dincəlmək istədi hamı.
İgid oğulların, cəsur qızların
Dedilər, ey düşmən bizləri tanı.

Şahbulaq qalası ucadan uca,
Həsəd apardılar illər boyunca.
Çətir şəlaləsi azad olunca,
Düşmən gözü oldu səndə, Qarabağ.

İstədilər sənin torpağını, daşını
Murovdağ zirvədir əyməz başını.
Qoynunda ilanlar sürünən zaman,
Gizlətdin düşməndən sən gözyaşını.

Xudafərin mərd-mərdanə dayandı,
Şır-şır şəlaləsi qurudu, yandı
Yadlar qoynundadır deyə fəryadın,
Göylərə çəkildi, canım Qarabağ.

30 il dözmüşdün gözlərin aydın,
Azad olunca sən günləri saydın
İgid oğulların, atlandı atın,
Gəldi harayına, canım Qarabağ.

Şəni incidəni dara çəkdilər,
Özlərin sipər edib qala çəkdilər
Başından dumanı dala çəkdilər,
Sevincdən göz yaşın axdı, Qarabağ.

Canlarından, qanlarından keçdilər,
Özlərinə əbədi yol seçdilər
Düşmənlərin qanlarını içdilər
Sən azad ol, sən yaşa ey Qarabağ!

Vətənimin, şəhidimin hər zaman,
Baxın, gənclər biz qədrini bilməli,
Dosta-dost, düşmənə düşmən olmalı,
Bayrağımız göylərdə ucalmalı.



**Nəsrin CƏFƏRLİ,**
**Beynəlxalq Münasibətlər və Regionşünaslıq fakültəsi**
**273 B qrup**

## Yad

***(Albert Camusun "Yad" əsərinə ithafən)***

Həyat Xəzər kimi, həm gözəl həm çirkli,
Ya hər şey çox aydın, ya hər şey çox sirli,
Hər kəsin üzünü güldürən bu dünya,
Görəsən bir gün də bizi güldürərmi?

Mən Merso ilə həm fikir, bəlkə də həm tale,
O ki, insanların gördüm simalarını,
Çəkildi qəlbimdən ərşə ah-nələ,
Bəlkə də Tanrı sınar insanları,
Görəsən qalıb mı günahsız bir nəfər?
Sən deyilsən, mən deyiləm,
Bəlkə o dur deyə düşünürəm,
Bəs o kimdir hə?
O Tanrımı yoxsa şeytan mı?
Bütün günahları işlərkən adəm övladı,
Bəlkə də şeytanı günahlandırdı,
Bilmirəm ,iblisə heç qulaq asmadım,
Sanki saçları olan parlayan bir Ay idi,
Gözləri dəniz, qaşları tarma bir yay idi
Qoxusu qaldı hər nəfəsimdə,
Gözəlliyi mələklərdən gələn pay idi,
Bir insan bu qədər gözəl ola bilər mi?
Mən uşaq ikən inanırdım ki,
Hər kəsin bir şeytanı var,
Bəlkə də o da mənim şeytanım imiş,
Düşünürdüm ki, biz hər kəsdən fərqli,
Sən demə sən də hamı kimi imişsən,
Mən sevgi limanında yaşayan sakin,
Sən isə başqa limana gedən gəmi imişsən,
Unutmaq lazım öyrənilən hər şeyi,
Çəkilmək bir səhraya, olmaq sufi.
Yüksəlmək mənəviyyat qatına,
Baxaraq ölümün dadına.
Hər şeydən uzaq Tanrıya yaxın,
Ruh olsun çılpaq, əyin yalın.
Hər kəs getsin , tərk etsin,
Sadəcə həmişəki kimi o qalsın.
Yenidən can versin, həyat versin,
Başqa bir bədən, başqa bir şəhər,
Amma daha yollarımız kəsişməyəcək
Biz eyni şəhərdə, iki yad nəfər...



**Bəxtiyar YUSİFZADƏ,**
**Beynəlxalq Münasibətlər və Regionşünaslıq fakültəsi**
**269 A qrup**

# POLİQLOT

№ 5(259) may 2025 * Təsisçi: Azərbaycan Dillər Universiteti * www.adu.edu.az


## “Xəzər” jurnalının yeni nömrəsi

Azərbaycan tərcümə məktəbinin formalaşmasında müstəsna xidmətləri olan ixtisaslaşmış “Xəzər” tərcümə və mədəniyyət jurnalının Azərbaycan Dillər Universitetinin (ADU) Tərcümə Araşdırmaları Mərkəzinin mətbu orqanı kimi yeni nömrəsi işıq üzü görüb.

Jurnal redaktorun “Tərcümənin və tərcüməçinin problem: bizdə nə yoxdur, nə çatışmır” yazısı ilə başlayır.

“İlin nobelçisi” bölməsində Ədəbiyyat üzrə Nobel mükafatı laureatı Han Kang ilə müsahibə, yazıçının “İşıq və bağ” adlı Nobel mühazirəsi və “İnsan əməlləri” romanından bir parça oxuculara təqdim olunub.

“Şərq mədəniyyəti” bölməsində Şəms Təbrizi-840, Bir qeybin anatomiyası, Eşq qapısı (“Məqalat”dan pritçalar) yazıları yer alıb.

Oxucular “Şimali Amerika ədəbiyyatı” bölməsində Sol Bellounun “Gümüş nimçə” hekayəsi, Leroy Consun “Uçan hollandiyalı pyesi və Marqaret Ətvudun şeirləri ilə tanış ola bilərlər.

“Avropa ədəbiyyatı” bölməsində Lev Tolstoy yaradıcılığından yeni tərcümələr, Anri Arbilin şeirləri, Natali Kulişin “Onuncu parallel” hekayəsi yer alıb.




“Tərcümə sənəti” bölməsində Qabriel Qarsia Markesin “Bu yazıq tərcüməçilər”, Umberto Ekonun “Təxminən eyni fikir ifadə etmək” və s. yazılar təqdim olunub.

“Dialoq. Esse” rubrikasında isə Latın Amerikası romanı haqqında Mario Varqas Lyosanın Qabriel Qarsia Markeslə söhbəti, Karlos Fuentesin “Roman sənətinin əsas prinsipləri” və V Beynəlxalq Berlin ədəbiyyat festivalındakı çıxışı yer alıb.

Jurnalın “Mövqe” rubrikasında oxucular Sadiq Zamanın “Dəyərli elmi irs: Azərbaycan tərcümə ensiklopediyası”, akademik Muxtar Kazımoğlunun “Elmi əsər yazıçı tərcüməsində”, Fəxri Uğurlunun “Dünyaya çıxmaq necə mümkündür” adlı yazılarla tanış ola biləcəklər.

Jurnalın “Debüt” rubrikasında Banuçiçək Qasımzadənin tərcüməsində Lidiya Deyvisin hekayələri təqdim olunub.

“Yaddaş” bölməsində isə oxucular Vilayət Hacıyev-75: “Tərcümə -mədəniyyətin sütunlarından biridir”, Arif Acaloğlu: “Milli mübarizəmizə tərcümələrimlə xidmət edirəm” adlı müsahibələrlə tanış ola biləcəklər.

Qeyd edək ki, “Xəzər” tərcümə və mədəniyyət jurnalının məsləhətçisi Xalq yazıçısı, akademik Kamal Abdulla, redaktoru yazıçı-tərcüməçi Etimad Başkeçiddir.

Dərginin redaksiya heyətinə Saday Budaqlı, Mahir N.Qarayev, Nəriman Əbülrəhmanlı, Yaşar Əliyev, Püstə Axundova və Cavid Zeynallı daxildir.

Jurnalın Beynəlxalq Şurasında isə Burak Eke (Türkiyə), Elizbar Cavelidze (Gürcüstan), Rolan Seysenbayev (Qazaxıstan), İsgəndər Pala (Türkiyə), Daniele Franzoni (İtaliya), Takayuki Murakami (Yaponiya), Ales Karlyukoviç (Belarus), Anna Maria Palomares (Venesuela), Afanasi Mamedov (Rusiya), Supiyanat Mamayeva (Dağıstan), Orxan Aras (Almaniya) təmsil olunur.

## 18 May - Beynəlxalq Muzeylər Günü



Hər il mayın 18-i dünya ölkələrində, eləcə də Azərbaycanda Beynəlxalq Muzeylər Günü kimi qeyd olunur. Beynəlxalq Muzeylər Şurasının (ICOM) təşəbbüsü ilə 1977-ci ildə təsis olunmuş bu əlamətdar günün məqsədi muzeylərin cəmiyyətin həyatında nə dərəcədə mühüm rol oynadığını göstərməkdir.

Beynəlxalq Muzeylər Gününün builki (2025) mövzusu “Sürətlə dəyişən icmalarda muzeylərin gələcəyi”dir (“The future of Museum in Rapidly Changing Communities”). Bu maraqlı mövzunun açılımı budur ki, icmalar texnologiya, mədəniyyət və qarşılıqlı əlaqədəki dəyişikliklərə uyğunlaşdıqca, muzeylər inklüzivliyi və aktuallığı vurğulayan yollarla inkişaf edəcəklər. Buna görə də muzeylər çevik olmalı, daim dəyişən dünyaya uyğunlaşmalı və daha interaktiv, əhatəli və müxtəlif auditoriyalar üçün aktual olmalıdır.

Bu gün ölkəmizdə fəaliyyət göstərən elm və mədəniyyət ocaqlarından biri olan ADU-nun Muzeyi Azərbaycanın mədəni-maarif mənzərəsində müstəsna rol oynayır. Muzey daha geniş universitet kontekstinin bir hissəsidir və Azərbaycanın və onun hüdudlarından kənarda Azərbaycan Dillər Universitetinin müxtəlif dilləri, mədəniyyətləri və dil irsini qorumaq üçün həyata keçirdiyi tədbir və proqramları nümayiş etdirmək və qeyd etmək üçün vacib bir qurumdur.

Azərbaycan Dillər Universitetinin Muzeyi təhsil, mədəniyyət və texnologiyanın kəsişməsində dinamik bir qurum olmaq potensialına malikdir. Muzey Azərbaycanın zəngin dil irsinə, ədəbiyyatına və mədəni mübadilələrinə diqqət yetirməklə millətin mədəni kimliyinin qorunub saxlanmasında mühüm rol oynayır, eyni zamanda çoxdilliliyi və qlobal dialoqu təşviq edir. Muzeyin gələcəyi rəqəmsal vasitələrin daha da inteqrasiyasını, fənlərarası əməkdaşlıqları və həm yerli icmaların, həm də beynəlxalq ziyarətçilərin müxtəlif dillərin və mədəniyyətlərin öyrənilməsinə cəlb edilməsinə daha çox üstünlük verərək inkişaf edə bilər.

Martın 12-də “Quacquarelli Symonds” reytinq agentliyi fənn sahələri üzrə dünyanın ən yaxşı universitetlərinin 2025-ci il üçün cədvəlini dərc edib və Azərbaycan Dillər Universiteti (ADU) “Müasir dillər” proqramı üzrə 100 pillə irəliləyərək dünyanın ən yaxşı 250 universitetinin siyahısına daxil olub. ADU-nun Muzeyində bu dəyərli eksponat QS 2023 VƏ QS 2024 sertifikatları ilə yanaşı sərgilənir.

2025-ci ildə Azərbaycan Dillər Universiteti ölkə üzrə daha bir ilkə imza atmışdır. Belə ki, Universitetin Muzeyi İCOM-un Beynəlxalq Komitələrindən biri olan UMAC (International Council of Museums Committee for University Museums and Collections) bazasına daxil edilmişdir. Rəhbərliyin tükənməz əməyi və səyləri nəticəsində əldə etdiyimiz bu uğurlar akademik Kamal Abdullanın elmə, təhsil və mədəniyyətə verdiyi önəmin, dəyərin nə qədər yüksək olduğunu bir daha sübut edir.

## Tələbələrimiz “Bakı Marafonu 2025”də

**Azərbaycan Dillər Universitetinin (ADU) tələbələri mayın 4-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən “Bakı Marafonu 2025”də iştirak ediblər.**

Qeyd edək ki, “Küləyə qalib gəl” şüarı ilə təşkil edilən yarış ümumilikdə 21 km-lik məsafəni əhatə edib. 2016-cı ildən təşkil edilən Bakı Marafonun məqsədi idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etməkdir.

## Tələbələrimiz Cocuq-Mərcanlı və Zabux məktəblərində

### *pedaqoji təcrübə*

**Azərbaycan Dillər Universitetinin (ADU) tələbələri pedaqoji təcrübə keçmək məqsədilə işğaldan azad olunmuş ərazilərdə yerləşən məktəblərə yola düşüblər. Təcrübə proqramı çərçivəsində tələbələr Cəbrayıl rayonunun Cocuq-Mərcanlı kənd tam orta məktəbində və Laçın rayonunun Zabux kənd tam orta məktəbində bir ay müddətində fəaliyyət göstərəcəklər.**

İngilis və Alman dilləri fakültəsi ilə İngilis və Fransız dilləri fakültəsinin tələbələri - Ulduz Mirzəyeva, Nazənin Abdullayeva, Ayşə Qədimova, Günay Hüseynli, Tərgül Məmmədxanova və Natəvan Bağırova adıçəkilən məktəblərdə pedaqoji bilik və bacarıqlarını tətbiq edəcəklər.

Layihənin ideya müəllifi ADU-nun rektoru, akademik Kamal Abdulladır. Bu təşəbbüs həm Cocuq-Mərcanlı, həm də Zabux kənd məktəbləri üçün ilk təcrübədir.

Universitetin Əlavə təhsil, təcrübə və karyera şöbəsinin müdiri Nicat Aşurov da bölgəyə səfər edərək məktəblərdə yaradılmış şəraitlə tanış olub. O, həmçinin məktəb rəhbərliyi və şagirdlərlə görüş keçirib.

## Rumıniyalı şair Emilia İvanku ADU-da



**Azərbaycan Gənc Tərcüməçilər Assosiasiyasının dəvəti və təşkilatçılığı ilə ölkəmizdə səfərdə olan rumıniyalı alim, şair və tərcüməçi, hazırda Helsinki Universitetinin dəvətli professoru Emilia İvanku Azərbaycan Dillər Universitetində qonaq olub. Professor Emilia İvanku bir sıra tədbirlərdə iştirak edib.**

Aprelin 10-da ADU-da “Mifopoetik düşüncə prizmatik tərcümənin əsas anlayışı kimi” mövzusunda E.İvanku tərəfindən mühazirə təqdim olunub və interaktiv təlim keçirilib.

Aprelin 11-də isə “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində 2024-cü ilin dekabrında nəşr edilmiş “Bu ağacım bir ormandır” adlı şeirlər kitabının təqdimatı baş tutub. Təqdimat zamanı kitaba daxil edilmiş şeirlər rumın, ingilis və Azərbaycan dillərində səsləndirilib. Şeirləri Azərbaycan Dillər Universitetinin əməkdaşı Yaqub Cavadovun tarda müşayiəti ilə təqdim olunub.

Tədbir şair Emilia İvanku ilə onun şeirlərinin azərbaycancaya tərcüməçisi, dosent Fialə Abdullayeva arasında dialoq formatında təşkil edilib. Görüş zamanı həm müəllif, həm də tərcüməçi kitab üzərindəki iş təcrübələrini həmkarları və tələbələrlə bölüşüblər.

Təqdimatda şair Yusif Savalan, professor Şəhla Nağıyeva və professor Aynur Səbitova da kitabla bağlı öz fikirlərini səsləndiriblər. Hər iki tədbirdə ADU-nun müəllimləri ilə yanaşı, universitetin keçmiş məzunları da iştirak ediblər.


**Baş redaktor: Sadiq ZAMAN**

*Redaksiya heyəti:*
Misgər Məmmədov
Nərgiz Qurbanlı
Nərgiz Zeynalova
Ayna Əliyeva
İnarə Abdullayeva
Məryəm Şıxalizadə
Ceyran Əliyeva
Mədinə Əhmədova

Ünvan: Az 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134. Əlaqə telefonları: 440-29-31; 441-22-79

Qəzet «POLİQLOT»un redaksiyasında yığılıb, səhifələnib və «Azərbaycan Nəşriyyatı» MMC-də ofset üsulu ilə çap olunub.

Qeydiyyat № 720
Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb. Qeydiyyat №-si 1557

*Qiyməti 60 qəpik*

Tirajı: 1000
Sifariş: 1115